

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ziyalı ömrünün işığı - Zərifə xanım ƏLİYEVA



4

№ 063 (6988)

SƏS

10 aprel 2024-cü il.
Qiyməti 60 qəpik

# ÜÇ RAYONDA 9 İRİ LAYİHƏ



2

Azərbaycan Prezidenti İlham Əliyev Hacıqabul, Gəncə və Qəbələdə açılış mərasimlərində iştirak edib

# Qərbin çirkli Cənubi Qafqaz planı

## Aİ və ABŞ Rusiya və İranı Ermənistan üzərindən vurur



6

### Ramazanı Bütöv Azərbaycanda qeyd edirik



5

### Əli Kərimli terrorçunun "hüquqlarının müdafiəsin"ə qoşuldu



10

### Ən perspektivli peşələr hansılardır?



16

### İtirdiyimiz xüsusiyyətlər: utanmaq



13

### Qardaşlı bacılar, bacısız qardaşlar...



10

# ÜÇ RAYONDA 9 İRİ LAYİHƏ

*Azərbaycan Prezidenti İlham Əliyev Hacıqabul, Gəncə və Qəbələdə açılış mərasimlərində iştirak edib*

Azərbaycan Prezidenti İlham Əliyevin ölkənin rayon və bölgələrinə etdiyi müntəzəm səfərlər regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasının effektivliyinin təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir. Məhz bu səfərlər zamanı verilən dövlət tapşırıqlarının icrası yerində yoxlanılır, baş tutan açılışlar və təməlqoyma mərasimləri isə görülmüş işlərin həcminin göstəricisidir. Dövlətimizin başçısının regionlara etdiyi səfərlər iqtisadi əhəmiyyətinə paralel olaraq həm də böyük siyasi önəm kəsb edir. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə davam edən inkişaf tempinə müvafiq olaraq regionlarda abadlıq-quruculuq, yenidənqurma işləri davam etdirilir. Regionların iqtisadiyyatını möhkəmləndirməklə yanaşı, burada yaşayan əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması və məşğulluğunun artırılması istiqamətində də əməli işlər görülür.







Dövlət başçısının müvafiq sərəncamlarına uyğun olaraq, yolların tikintisi və yenidən qurulması, su, qaz, elektrik təsərrüfatlarının yenilənməsi və müasirləşdirilməsi, körpülərin salınması, sosialyönümlü obyektlərin yenidən qurulması və əsaslı təmiri prosesi davam edir. Bütün bu sadalanan amillər ölkə başçımız tərəfindən həm regionlara, həm də orada yaşayan vətəndaşlarımıza, onların sağlamlığına, maddi rifahına göstərilən xüsusi diqqətin təzahürüdür. Cənab Prezidentin müxtəlif bölgələrə müntəzəm səfərləri isə regionların tarazlı şəkildə inkişafına və müasirləşməsinə birbaşa xidmət edir.



## Prezident Hacıqabul rayonunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Hacıqabul rayonunda olub. Dövlətimizin başçısı Hacıqabul rayonu Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Bildirilib ki, vətəndaşların rahat gediş-gəlişini təmin etmək məqsədilə əsaslı şəkildə yenidən qurulan yol rayonun 8 yaşayış məntəqəsini birləşdirir. Uzunluğu 39 kilometr olan iki hərəkət zolaqlı avtomobil yolu 4-cü texniki dərəcəyə uyğun inşa edilib.

Marşrutboyu yararsız hala düşmüş müxtəlif diametrli suötürücü borular yeniləri ilə əvəz edilib və zəruri olan yerlərdə müxtəlif diametrli yeni dəmir-beton suötürücü borular quraşdırılıb. Bununla yanaşı, Udullu kəndi ərazisində Pirsaat çayı üzərində yerləşən, artıq istismar müddətini başa vurmuş mövcud metal körpünün əvəzində üçaşırımlı yeni dəmir-beton körpü inşa olunub. Görülən işlər nəticəsində 12 mindən çox əhalinin rahat gediş-gəlişi təmin olunub, yük və sərnişin daşınması asanlaşıb.

Həmin gün Azərbaycan Prezidenti rayonda "Agro Dairy" MMC-yə məxsus 4200 hektar torpaq sahəsinə Kür çayından nasos stansiyası vasitəsilə suvarma suyunun çatdırılması üzrə suvarma qurğuları kompleksi ilə tanış olub. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov və "Agro Dairy" MMC-nin icraçı direktoru Niyazi Əmirbəyov dövlətimizin başçısına görülən işlər barədə məlumat veriblər.

Qeyd edək ki, Azərbaycan Prezidenti əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əkin dövriyyəsinə əlavə torpaqların cəlb olunması işlərinin davam etdirilməsi və bu istiqamətdə yeni layihələrin hazırlanması məqsədilə 2021-ci il mayın 29-da Sərəncam imzalayıb. Sərəncama uyğun olaraq Hacıqabul rayonu ərazisində "Agro Dairy" MMC-yə məxsus torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün Kür çayının Sabirabad rayonundan keçən hissəsində sərfi saniyədə 3 kubmetr olan 4 aqreqatlı üzən nasos stansiyasının, boru kəmərinin və dəmir-beton kanalının tikintisinə başlanılıb.

Prezident İlham Əliyevə Hacıqabul suvarma layihəsi barədə də məlumat verilib. Qeyd edilib ki, layihə çərçivəsində 2022-ci ildə 2555 hektar sahənin suvarılması təmin olunub. Layihənin gələn il 1225 hektar sahədə də həyata keçirilməsi nəzərdə tutulur. Həmçinin bildirilib ki, ötən ilin sonunda intensiv suvarma sahələrinin ərazisi 19 min 200 hektara, pivotların sayı 296-ya çatdırılıb, 4 toxum emalı kompleksi yaradılıb. Qarabağ regionu üzrə 2020-ci ildən təhkim olunmuş ərazilərdə 27 min 107 hektar, 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirləri nəticəsində azad edilmiş Xocalı, Ağdərə və Xocavənd rayonlarında 11 min 276 hektar ərazidə yazlıq və payızlıq əkin işləri aparılıb.

## Gəncəyə səfər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Gəncə şəhərində səfərdə olub. Dövlətimizin başçısı əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Azərbaycan Prezidenti Gəncə şəhərində Ekoloji Park Kompleksinin tikintisi ilə tanış olub. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov dövlətimizin başçısına görülən işlər barədə məlumat verərək bildirib ki, Qərb bölgəsində ilk dəfə Gəncə şəhərində salınan Ekoloji Park Kompleksinin tikintisinə və onun ətrafında abadlıq işlərinə 2021-ci ilin dekabrında başlanılıb. Gəncəçay çayının sağ sahilində yerləşən kompleks 11 hektar ərazini əhatə edir.

Unikallığı ilə seçiləcək kompleksdə insanların rahatlığı və asudə vaxtlarını daha səmərəli keçirmələri üçün bütün lazımi şərait yaradılır. Kompleksə sahəsi 1285 kvadratmetr olan ikimərtəbəli oranjereya binası daxildir. Burada bütün fəsillərdə müxtəlif növ nadir gül-çiçək, kol bitkiləri, eləcə də ağac tingləri yetişdiriləcək. Ekoloji Park Kompleksinin ərazisində əyləncə mərkəzlərinin, idman qurğularının, iaşə obyektlərinin yaradılması da planlaşdırılıb. Buraya gələn ziyarətçilər, həmçinin müxtəlif növ gül-çiçək, kol bitkiləri, eləcə də ağac tinglərinin yetişdirilməsi işləri ilə tanış ola biləcəklər.

**Ardı Səh. 3**

# ÜÇ RAYONDA 9 İRİ LAYİHƏ

*Azərbaycan Prezidenti İlham Əliyev Hacıqabul, Gəncə və Qəbələdə açılış mərasimlərində iştirak edib*

Əvvəli Səh. 2




Prezident İlham Əliyev daha sonra Gəncə İdman Sarayının açılışında iştirak edib. Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına Gəncə İdman Sarayında yaradılan şərait barədə məlumat verib. Ötən illərdə Azərbaycanda onlarla Olimpiya İdman Kompleksi və digər idman qurğuları tikilib. Bu isə ölkəmizdə idmana marağı artırıb, gənclərin asudə vaxtlarını daha səmərəli keçirmələri üçün geniş imkanlar yaradıb. Gəncədə istifadəyə verilən İdman Sarayı da bu qəbildən layihələr arasında xüsusi yer tutur. Prezidentin müvafiq Sərəncamına əsasən inşa edilən Gəncə İdman Sarayının tikintisinə 2018-ci ilin iyununda başlanılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin martında tam başa çatdırılıb. Gəncə İdman Sarayı müasirliyi ilə diqqəti cəlb edir. Ümumi sahəsi 40 min kvadratmetrə yaxın olan İdman Sarayında bütün zəruri infrastruktur yaradılıb. Gəncə İdman Sarayında Beynəlxalq İdman Atıcılığı Federasiyasının (ISSF) standartlarına uyğun atıcılıq zalı, həmçinin müxtəlif ölçülü yoqa, pilates, atletika, fitnes, boulinq, masaüstü tennis, şahmat, kross-fit zalları, SPA mərkəzi, bilyard masası, uşaq otağı, 3 konfrans zalı, böyük restoran, kofe-breyk bölmələri və marketlər fəaliyyət göstərəcək. Burada müasir mehmanxananın yaradılması da maraqlıdır. Səksən nömrəsi olan mehmanxanada 160 idmançının qalması və istirahəti üçün hər cür imkan var.

Həmin gün Azərbaycan Prezidenti Gəncə şəhər stadionunun təməlini qoyub. Dövlətimizin başçısına stadionda yaradılacaq şərait barədə məlumat verilib. Bildirilib ki, 1959-1963-cü illərdə inşa edilən Gəncə şəhər stadionu 1964-cü ildə istismara verilib. Son illərdə stadionun tamaşaçı tribunaları yararsız vəziyyətə düşdüyündən və texniki cəhətdən istismarı mümkün olmadığından fəaliyyəti qismən həyata keçirilirdi. Stadionun ərazisində köməkçi məşq meydançaları və futbol akademiyası binası tikilib. Prezidentinin 2023-cü il 6 oktyabr tarixli Sərəncamına əsasən, Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi üçün Prezidentin ehtiyat fondundan ilkin olaraq bir milyon manat ayrılıb. Stadionun layihələndirmə işləri artıq başa çatdırılıb. Yenidənqurma işləri çərçivəsində stadionun ərazisi genişləndirilərək 10 hektara çatdırılacaq. Stadion UEFA tələblərinə uyğun işıqlandırma, səs, yayım, internet, təhlükəsizlik, giriş-çıxış sistemləri ilə təchiz olunacaq. Bir sözlə, stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq yarışların keçirilməsinə hərtərəfli şərait yaradacaq. Bundan sonra Prezident İlham Əliyev Gəncə şəhər stadionunun təməlini qoyub.





## Qəbələdə hansı işlər görülüb?

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 9-da Qəbələ rayonunda səfərdə olub. Dövlətimizin başçısı İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin Qəbələ şəhərində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Qəbələ rayonunda "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) 110/35/10 kV-luq "Hacıalılı" elektrik yarımstansiyasının və Regional Təlim Mərkəzinin açılışında iştirak edib. "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Qəbələ elektrik şəbəkəsi ümumilikdə 31 min 502 abonenti əhatə edir. ASC tərəfindən rayon ərazisində aparılan yenidənqurma işləri çərçivəsində Qəbələ şəhərinin, 2 qəsəbənin və 13 kəndin elektrik təsərrüfatı yenilənib. İstehlakçıların elektrik enerjisi təchizatının keyfiyyətinin yüksəldilməsi məqsədilə 110/35/10 kV-luq 26 meqavat-amperlik (MVA) "Hacıalılı" yarımstansiyasının gücü 41 MVA-ya çatdırılmaqla müasir tələblərə uyğun yenidən tikilib. Dövlətimizin başçısına 2020-2023-cü illərdə paylayıcı şəbəkələrdə aparılan bərpa və yenidənqurma işləri, "Azərişıq" ASC tərəfindən tətbiq edilən yaşıl və innovativ texnologiyalar, eləcə də "100 Kənd" layihəsi üzrə regional şəbəkələrdə 150-dən çox yaşayış məntəqəsinin elektrik təchizatının yenidən qurulmasının texniki, iqtisadi və ekoloji səmərəliliyi barədə məlumat verilib. "Hacıalılı" elektrik yarımstansiyasının qarşısında elektromobillər üçün "Azərişıq" tərəfindən iki enerjidoldurma stansiyası inşa olunub. Diqqətə çatdırılıb ki, elektromobil enerjidoldurma stansiyalarının tətbiqi nəticəsində ildə 230 min ton karbohidrogen yanacağına qənaət edilməsi və 239 min ton karbon dioksid emissiyasının azaldılması mümkün olacaq. Prezident İlham Əliyev "Hacıalılı" yarımstansiyasını işə salıb.

Azərbaycan Prezidenti 160 çarpayılıq Qəbələ Rayon Mərkəzi Xəstəxanasının açılışında da iştirak edib. Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına xəstəxanada yaradılan şərait barədə məlumat verib. Bildirilib ki, binanın inşasına 2016-cı ildə başlanılıb və tikinti işləri 2023-cü ildə başa çatdırılıb. Xəstəxananın yerləşdiyi ərazinin ümumi sahəsi 4,9 hektardır. Tibb ocağının altımərtəbəli əsas binası üç blokdan ibarətdir. Bu səhiyyə müəssisəsində terapiya, uşaq xəstəlikləri, nevrologiya, ümumi cərrahiyyə, ginekologiya, travmatologiya, LOR, infeksion xəstəliklər, şüa-diaqnostika, qəbul, laboratoriya, təcili tibbi yardım, doğum, doğuşdan sonrakı fizioloji şöbələr və hamiləliyin patologiyası şöbəsi də fəaliyyət göstərəcək. Xəstəxana müasir tələblərə cavab verən tibbi avadanlıqla təchiz olunub.

Ərazidə əsas korpusla yanaşı, Gigiyena və Epidemiologiya Mərkəzi, Yoluxucu Xəstəliklər Korpusu, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbəsi üçün binalar tikilib. Burada yaradılan şəraitdən görünür ki, vətəndaşların hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların müalicə və müayinə işinin yüksək səviyyədə təşkili, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlətimizin başçısının daim diqqətində və nəzarətindədir. Bu cür müasir səhiyyə müəssisəsinin istifadəyə verilməsi yalnız Qəbələ sakinlərinə deyil, bütövlükdə region əhalisinə hərtərəfli tibbi xidmət göstərməyə imkan yaradır.

Prezident İlham Əliyev Ağdaş-Zarağan yolunun 40-cı kilometrliyindən başlayan Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verərək bildirib ki, dördüncü texniki dərəcəyə uyğun salınan iki hərəkət zolaqlı yolun ümumi uzunluğu 41 kilometrdir. Texnoloji ardıcıllığa uyğun olaraq lazımi hündürlükdə optimal qum-çınqıl qarışığından yol yatağının tikintisi, yola iki laydan ibarət yeni asfalt-beton örtüyünün döşənməsi işləri görülüb. İnşaat işlərinin sonuncu mərhələsində hərəkətin normal təşkili üçün yol nişanları və məlumatverici lövhələr quraşdırılıb, nişanlanma xətləri çəkilib. Yol üzərində bir körpü salınıb, 18 avtodayanacaq yaradılıb. Bu avtomobil yolunun tikintisi əhatə etdiyi 15 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə turizmin və kənd təsərrüfatının inkişafında, eləcə də insanların həyat tərzinin və rifah halının yüksəlməsində mühüm əhəmiyyət kəsb edəcək.

Azərbaycan Prezidenti İlham Əliyev Qəbələ rayonunda 624 şagird yerlik Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak edib. Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verərək bildirib ki, qəsəbədə 1983-cü ildə tikilmiş məktəb binasının müasir tələblərə cavab verməməsi və qəzalı vəziyyətdə olması yeni binanın inşası zərurətini yaratmışdı. Bum qəsəbə tam orta məktəbinin tikintisinə 2021-ci ilin dekabrında başlanılıb. Məktəb binası 26 sinif otağından, kimya, fizika və biologiya laboratoriyalarından, 2 informatika kabinetindən, 2 texnologiya otağından, gənclərin çağırışaqədərki hazırlıq kabinetindən, kitabxana, 195 yerlik akt zalı, idman zalı və 80 yerlik yeməkxanadan ibarətdir. Yeni dövrün çağırışlarına uyğun olaraq, müasir məktəblərin qurulması Azərbaycan dövlətinin prioritetləri sırasında başlıca yer tutur. Son 20 ildə Azərbaycanın mərkəzi şəhərlərindən tutmuş ən ucqar kəndlərinə qədər yaşayış məntəqələrində 3600 yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

**V.VƏLİYEV**

# Ziyalı ömrünün işığı - Zərifə xanım ƏLİYEVA

Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftalmoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın 15 aprel anım günüdür. "İnsan biliyi ilə mütləq cəmiyyətə fayda verməli, xeyirxah əməlləri ilə özündən sonra iz qoymalıdır", - deyən Zərifə xanım üçün xeyirxahlıq hər zaman həyat tərzi olub. Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani keyfiyyətləri, elmi fəaliyyəti təkrarsız bir insan olaraq hər zaman xatırlanır.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində belə deyirdi: "Zərifə xanım, sözün əsl mənasında, böyük həkim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir".






### "YALNIZ O ŞƏXS ƏSL HƏKİMDİR Kİ, XƏSTƏNİN AĞRILARINI MƏHZ ÖZÜNÜN AĞRILARI HESAB EDİR"

Bəli, qeyri-adi peşəkarlığı ilə şöhrətlənən, dünya oftamologiya elminə töhfələrini verən, böyük qəlbli insan, nəcib qadın Zərifə xanım Əliyeva öz əməli fəaliyyəti ilə minlərlə insanın gözünə nur verərək, onlara bu dünyanın gözəlliyini görmək kimi böyük xoşbəxlik bəxş etmişdir. İnsanlarla mehribanlığı, dərin humanizmi Zərifə xanımın peşəsinə münasibətində də özünü aydın göstərirdi. O, haqlı olaraq hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir". Hər insan əməli fəaliyyətində bu səadətə - insanlara nur bəxş etmək səadətinə qovuşa bilmir. Böyük istedad, zəhmət və geniş qəlb insanı bu yüksəkliyə ucalda bilir. Gərgin əməyi ilə uzun illər elmi nailiyyətlərə imza atan Zərifə xanım elm aləmində nadir istedadlı şəxsiyyət kimi tanınır. Elmə gətirdiyi yenilik və çəkdiyi zəhməti ilə dünya oftalmologiya elmində öz möhrünü vurub.

### ELMİ NAİLİYYƏTLƏRİ İLƏ AZƏRBAYCAN SƏHİYYƏSİ DÜNYAYA NÜFUZ ETDİ

Müasirlərindən biri yazırdı ki, Zərifə Əziz qızı göz yaşı ifrazının pozulması, göz yaşı ifraz edən orqanların xəstəlikləri məsələləri ilə məşğul olmağa başlamışdı: "Uzun müddət belə halların mahiyyətini və səbəblərini anlamaq qeyri-mümkün idi. Biz yalnız bu gün bilirik ki, quru göz sindromu deyilən bir əlamət vardır. O illərdə isə bu haqda heç nə eşitməmişdik. Amma bu, alimin öncəgörmə qabiliyyətidir. Bu keyfiyyət məhz istənilən istiqamətdə yaradıcılıqla işləyən insanlara xasdır".

Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub.

O, yaşadığı illərdə araşdırmalar aparmış, elmi zəkası ilə gəldiyi qənaətlər və nəticələr böyük uğurlara yol açmışdır. Bu uğur bir şəxsin olmuş olsa da, bundan minlərlə, milyonlarla insan bəhrələnmişdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir.

### ŞƏRƏFLİ ÖMÜRDƏN SƏTİRLƏR

Şərəfli bir ömür yoluna sahib olan Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Uşaqlığı bu kənddə keçsə də, sonradan onlar ailəliklə Bakıya köçüblər. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Bu elə bir zaman idi ki, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi. Klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir.

### ELMİ NAİLİYYƏTLƏRİ ONU DÜNYADA TANITDI

Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. Öz həyatını tibb elminə bağlayan Zərifə xanım mərhələ-mərhələ buna nail olub. Onun elmi nailiyyətlərinə nəzər saldıqda nə qədər böyük əhəmiyyətə malik olduğunu görürük. Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür. Onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbbüsündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına da əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır.

Onun elmi nailiyyətləri ilə yanaşı, ziyalı işığı da daim insanlara nur, qüvvət verib. Zərifə Əliyevanın hər sözü, hər bir hərəkəti nümunəyə çevrilib. Hətta həmkarlarına verdiyi tövsiyələr onun ziyalılığının nümunəsidir.

Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu qeyd ediblər. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın kimi mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda, bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir.

### "ZƏRİFƏ XANIM ÇOX SADƏ BİR İNSAN İDİ, HEÇ VAXT BÜRUZƏ VERMİRDİ Kİ, HEYDƏR ƏLİYEVİN - BİRİNCİ KATİBİN HƏYAT YOLDAŞIDIR"

Zərifə xanımın zəngin daxili aləminin formalaşmasında ailəsinin, valideynlərinin çox böyük rolu olmuşdu. Tanınmış alim və həkim, keçmiş SSRİ-də böyük nüfuz qazanmış bir dövlət xadimi Əziz Əliyevin qızı məhz Zərifə xanım kimi olmalı idi. Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur. Zərifə xanım Ulu Öndər Heydər Əliyev kimi bir dahi üçün təkcə sədaqətli ömür-gün yoldaşı olmamışdı, həm də mənəvi dayağa, əsl dosta çevrilmişdi. Həyatının sonunadək onu qorumuşdu. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Zərifə xanım Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə - Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin - birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi."

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. Zərifə xanım Azərbaycana Cənab İlham Əliyev kimi Prezident bəxş edən bir ana olaraq hər zaman tarixdə qalacaqdır. Ölkəmizin sürətli inkişafı, dünyadakı nüfuzu, möhtəşəm uğurları ilə fəxr edərkən, Azərbaycan Prezidentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində Ulu Öndər Heydər Əliyev ilə yanaşı, sözsüz ki, Zərifə xanımın da təsirini görürük. Bizə Zəfər yaşadan Cənab İlham Əliyevi bu xalqa bəxş edib.

Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli-zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya və ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevrilib. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olaraq bir simaya çevirdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ramazanı Bütöv Azərbaycanda qeyd edirik

## İlham Əliyev: "Builki Ramazan bayramı həm də otuz illik düşmən tapdağından azad edilmiş dədə-baba yurdlarımızda, Azərbaycanın bütün suveren ərazisində keçirilməsi ilə əlamətdardır"

***“Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu bu ayda müsəlmanlar Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi zənginliyin fərəhini yaşamaq fürsəti qazanırlar”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bildirib.***

Hikmətlər xəzinəsi ”Qurani-Kərim”in nazil olduğu mübarək Ramazan ayını xalqımız böyük sevinclə qarşıladı. Mənəviyyat və əxlaqın zənginləşməsinə vəsilə olan oruc ibadəti insanın daxili saflığına, pis vərdişlərdən uzaq durmasına, Allah yolunda xeyirxah işlər görməsinə, fiziki və mənəvi cəhətdən sağlam olmasına səbəb olur. Ramazanın fəzilətləri barədə müqəddəs kitabımız ”Qurani-Kərim”də belə yazılır: ”Ramazan ayı insanlara doğru yol göstərən, doğru yolu və haqqı batildən ayırmağı açıq-aşkar dəlillərlə bəyan edən Quranın nazil olduğu aydır. Sizdən hər kim o aya yetişsə oruc tutsun..”

### XEYİRXAH ƏMƏLLƏR NAMİNƏ BİRLİK

Bu hikmət dolu sözlər insanların saflığa, doğru yola çağırışıdır. İslamda ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilən Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır ki, Azərbaycan xalqı da bu ay ərizində əmin-amanlıq, qardaşlıq kimi dəyərləri nümayiş etdirmiş oldu. Oruc tutmaqla insanlar iradə qüvvələrini, dözümlüyünü, təmiz olduqlarını da göstərə bilirlər. Müsəlmanlar bu ayda Allah və din qarşısında borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanmış oldular. Oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşamış oldular. Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs ”Qurani-Kərim”in nazil olması ilə əlamətdardır. İslamda ilin ayları arasında ən şəfaqətli və ən müqəddəs ay hesab edilən Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır ki, Azərbaycan xalqı da bu ay ərizində əmin-amanlıq, qardaşlıq kimi dəyərləri nümayiş etdirmiş oldular. Təbii ki, milli-mənəvi dəyərlərimizin qorunması, onların müəyyən bir çərçivədə təbliği əsas məsələlərdən biri kimi hər bir azərbaycanlını düşünməyə vadar edir. Zamanın müxtəlif illərində milli-mənəvi dəyərlərimiz meyar olaraq, xalqın milli düşüncəsinə, onun bir vətəndaş kimi formalaşmasına təsirini göstərmiş, bu gün də yetişən nəsil, məhz bu prosesin içərisində özünü, azərbaycançılıq məfkurəsini dərk edərək, mövqeyini müəyyənləşdirir. Sözsüz ki, mənəvi dəyərlərimiz mənəviyyatımızı yaşadan dəyərlərin geniş bir məkanda təbliği əsasında reallaşır. Təbrikdə qeyd olunur ki, ”Xalqımız taleyinin ən çətin dönəmlərində belə, öz tarixi köklərini, milli-mədəni dəyərlərini, adət-ənənələrini qoruyub saxlamışdır. İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanda dini bayram və mərasimlər hər il qeyd olunur və müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi təcəssüm etdirir.”

### MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİ QORUYUB SAXLAMAQ HƏR BİR AZƏRBAYCANLININ MƏNƏVİ BORCUDUR

Milli-mənəvi dəyərləri ilə tarixə söykənən Azərbaycan əsrlərdən bizə gəlib çatan abidələri, daş yaddaşı, milli əxlaqi dəyərləri, milli mədəniyyəti ilə yüksək məfkurəyə malik olduğunu bir daha göstərir. Bu ali dəyərlər milli mövcudluğumuzun, bir xalq olaraq yaşam tərzimizin, milli kimliyimizin göstəricisi, fərdi və fərqli modelimizdir. Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan milli-mənəvi dəyərləri qoruyub saxlamaq hər bir azərbaycanlının müqəddəs, mənəvi borcudur.

Müstəqil Azərbaycan ölkə Prezidenti İlham Əliyevin dövlət-xalq birliyinə əsaslanan müdrik siyasəti, qətiyyətli iradəsi sayəsində yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir. Ölkəmiz multikultural dəyərləri təşviq edir, dünyanı həmrəyliyə dəvət edir. Ölkə başçısının həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan ekstremizm, radikalizm, terrorizmə qarşı mübarizənin önündə gedən dövlətlərdən biridir və islam dünyasının inkişafında özünəməxsus rolu var.

Azərbaycanda tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerant mühit, multikultural dəyərlər insanların dinindən və irqindən asılı olmayaraq siyasi sabitliyi, əmin-amanlığı ilə seçilən ölkədə firavan həyat sürməsinə əsas verir.

Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş, inanc yerlərinin təmiri və bərpası ilə bağlı görülən işlər deyilənləri bir daha təsdiqləyir.

### ”DUA VƏ NİYYƏTLƏRİNİZ TANRI DƏRGAHINDA QƏBUL OLUNACAQ”

İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynayıb. Xalqımız artıq dördüncü ildir ki, Ramazan ayına qalib xalq, Vətən və şəhadət eşqi sayəsində 30 illik işğala son qoymuş millət kimi qədəm qoyur. Builki Ramazan bayramı bizim üçün daha dəyərli və əlamətdardır. Azərbaycan xalqı bu mübarək ayı Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfər sevinci ilə yanaşı, separatçı rejimin süqutu - müqəddəs bayrağımızın Xankəndidə dalğalanması qüruru ilə qarşılayır. Təbrikdə bildirildiyi kimi, ”Builki Ramazan bayramı həm də otuz illik düşmən tapdağından azad edilmiş dədə-baba yurdlarımızda, Azərbaycanın bütün suveren ərazisində keçirilməsi ilə əlamətdardır. Əziz bacı və qardaşlarım! Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq hissləri ilə yola salırlar.”



Bildiyimiz kimi, Ramazan ayı təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Orucluğun başa çatdığı gün fitr bayramı adlanır ki, həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar.



Təbrikdə o da qeyd olunur ki, ”Ölkəmizin hər yerində xalqımıza xas xeyriyyəçilik və yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad edilir. Ümidvaram ki, dua və niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilərək cəmiyyətimizdə birliyi və həmrəyliyi daha da gücləndirəcəkdir.”

Oruc ibadətinin mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Qazılar Şurasının qənaətinə görə, adambaşına 10-15 manat fitrə zəkatının verilməsi məsləhət görülür. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir.

Ramazan bayramınız mübarək!

***Zümrüd BAYRAMOVA***

# Qərbin çirkli Cənubi Qafqaz planı

## *Aİ və ABŞ Rusiya və İranı Ermənistan üzərindən vurur*

Aprelin 5-də Ermənistanın baş naziri Nikol Paşinyan Brüsseldə Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen və ABŞ dövlət katibi Antoni Blinkenlə danışıqlar aparıb. Tərəflər əməkdaşlığı davam və inkişaf etdirmək barədə razılığa gəliblər. Brüssel və Vaşinqton Ermənistana müvafiq olaraq 270 milyon avro və 65 milyon dollar verəcəklərini vəd ediblər. Bununla belə, əməkdaşlıq sahələri arasında təhlükəsizlik məsələsi qeyd olunmayıb ki, bu da qonşu Azərbaycanla davamlı sülhün olmadığı halda Ermənistan üçün əsas məsələdir. Moskva, Bakı və Ankara bildiriblər ki, bu cür görüşlər regiona sabitlik qatmır. Görüşün üçtərəfli olduğu elan edilib, lakin orada dörd nəfər iştirak edib - Nikol Paşinyan, Antoni Blinken və Ursula fon der Leyendən başqa, bu, Avropa diplomatiyasının rəhbəri Josep Borrell idi. Dörd iştirakçı var, amma hələ də üçtərəfli adlandırılır. "Bugünkü yüksək səviyyəli dialoq Ermənistanın Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı ilə tərəfdaşlığının genişləndirilməsi deməkdir", Paşinyan danışıqların əvvəlində deyib. Ursula fon der Leyen Ermənistana sərmayə qoyacağını vəd edib ki, "Ermənistanın iqtisadiyyatı və cəmiyyəti daha güclü və sarsıntılara daha davamlı olsun" və Qarabağ qaçqınlarına kömək edəcək. "Biz onları dəstəkləmək üçün 30 milyon avrodan çox vəsait ayırmışıq və daha çox iş görməyə hazırıq", o əlavə edib.






Ermənistanın baş nazirinin saytında dəyer alan fikirlərində Borrel deyib ki, "Aİ Ermənistan üçün müsbət gündəm hazırlamaq və Birləşmiş Ştatlarla birləşərək suverenlik, demokratiya və davamlılığa güclü sadiqlik nümayiş etdirmək istəyir". Antoni Blinken öz növbəsində deyib: "Biz burada erməni xalqının demokratik, firavan gələcəyinə və daha inteqrasiya olunmuş və sülhsevər Cənubi Qafqaz regionuna transatlantik dəstəyi bir daha təsdiq etmək üçün toplaşmışıq".

Dörd nəfərdən ibarət üçtərəfli formatda keçirilən müzakirənin nəticəsi olaraq Avropa İttifaqı, ABŞ və Ermənistanın "siyasi islahatlar, iqtisadi inkişaf və humanitar yardım kimi əsas sahələr də daxil olmaqla əməkdaşlığı genişləndirmək məqsədi daşıdığı" bildirilib. "Biz mobillik, idarəetmə, hüquq-mühafizə, ticarət, rabitə, kənd təsərrüfatı, enerji və texnologiya kimi sahələrdə tərəfdaşlığımızı genişləndirməyə çalışacağıq. Bu əsas sahələri dəstəkləmək üçün Avropa İttifaqı və ABŞ Ermənistanla daha sıx əməkdaşlıq etməyi planlaşdırır", - danışıqların yekunlarına dair press-relizdə deyilir.

Bəyanat ümumidir, amma maraqlıdır ki, Ermənistanla təhlükəsizlik sahəsində əməkdaşlığın eyhamı belə yoxdur, bu ölkənin açıq-aşkar problemləri var - ilk növbədə qonşu Azərbaycanla davamlı sülhün olmaması səbəbindən. Bununla belə, görüşün nəticələrində iki rəqəm şəklində bəzi konkretliklər də var idi. Birləşmiş Ştatlar Ermənistana 65 milyon dollar yardım ayıracaq, Brüssel isə "yeni Ermənistan-Aİ tərəfdaşlığı gündəmini gücləndirmək üçün" 2024-2027-ci illər üçün 270 milyon avro ayıracaq.

Maraqlıdır ki, Aİ-ABŞ-Ermənistan görüşü ərəfəsində Antoni Blinken, daha sonra Ursula fon der Leyen Azərbaycan prezidenti İlham Əliyevə zəng edib. Amma Brüssel görüşü ilə bağlı Bakıdan verilən şərhlərə əsasən, bu çağırışların heç bir təsiri olmayıb. Hər halda, üçtərəfli görüş günü cənab Əliyev bildirdi ki, Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə inkişaf edir. İlham Əliyev Türkiyə Xarici İşlər Nazirliyinin keçmiş rəhbəri, indi isə millət vəkili Mövlud Çavuşoğlu ilə görüşündə Brüssel görüşünə münasibət bildirib.



Azərbaycan liderinin Prezidentin saytında yer alan sözlərinə görə, bu format "Cənubi Qafqaz üçün daha bir təhlükə mənbəyi yaradır": "Son günlər həm ABŞ-ın, həm də Avropa İttifaqının yüksək rütbəli rəsmiləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları zamanı bu görüşün Azərbaycana qarşı yönəlmədiyinə bizi inandırmağa çalışdılar. Lakin bunun Azərbaycana və Cənubi Qafqazda əməkdaşlığa qarşı yönəldiyini bilirik. Bu, ayırıcı xətlər yaratmaq və ölkəmizi təcrid etmək məqsədini güdür", - deyə İlham Əliyev kəskin şəkildə bildirib.

Aprelin 5-də Ankara da öz sözünü deyib. Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur ki, Azərbaycan istisna olmaqla, Aİ və ABŞ-ın təşəbbüsü "dünyaya xidmət etməkdənsə, Cənubi Qafqazı geosiyasi rəqabət zonasına çevirməyə yol açacaq". "Üçüncü tərəflərin, xüsusilə də regiondankənar aktorların ədalətli və qərəzsiz yanaşmaya riayət etmələri və prosesə zərər vurmaqdan ehtiyatla çəkinmələri vacibdir", - Türkiyə Xarici İşlər Nazirliyi qeyd edib. Artıq aprelin 5-i axşam saatlarında Ermənistan və Azərbaycan tərəfləri sərhəddə atışmaların baş verdiyini bildiriblər. Hər bir tərəf, adətən olduğu kimi, öz qonşusunu təxribatda ittiham edib. Brüsseldə keçirilən görüşdən təkcə Azərbaycan və Türkiyə narazılıq ifadə etməyib, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova aprelin 3-də keçirdiyi brifinqdə Nikol Paşinyanın səfərini öncədən şərh edib: "Təəssüf ki, İrəvan bu cür hadisələrin anti-Rusiya yönümlü olmasına, onların əksəriyyətinin maraqlarına qarşı yönəlməsinə inadla məhəl qoymur. region ölkələri, eləcə də Cənubi Qafqazda sülh və sabitliyə nail olmaq məqsədlərinə uyğunsuzluq. Ən əsası isə indi İrəvana "hər şeyi və hər şeyi" vəd edənlərin bunu əvvəllər haradasa həyata keçirmələrinə dair nümunələrin olmamasıdır. Onlar sadəcə mövcud deyillər".

Ermənistanın Tətbiqi Siyasi Araşdırmalar İnstitutunun elmi işçisi Sergey Melkonyan hesab edir ki, üçtərəfli görüş İrəvana heç bir xüsusi bonus gətirməyib. Onun sözlərinə görə, Paşinyan vətənə maliyyə vəsaiti ilə qayıtdı, lakin "heç bir milyarddan söhbət getmirdi". Ekspert hesab edir ki, Nikol Paşinyanın vəzifəsi Ermənistanın Avropa istəkləri ilə bağlı bəyanatların sadəcə söz olmadığını sübut etmək və daxili auditoriyaya onun həyata keçirdiyi kursun mif olmadığını göstərməkdir. Həm də Qərbdə siyasi mövqe nümayiş etdirmək - KTMT-nin fəaliyyətində və Rusiya ilə ikitərəfli münasibətlərdə iştirak etməmək istəyi, eyni zamanda Aİ, ABŞ və NATO ilə danışmağa hazır olmaqdır.

Eyni zamanda ekspert qeyd edib ki, indiyədək mövcud olan müqavilələrdən geri çəkilmənin ciddi xərcləri var: "Tərsiyə düşmə perspektivlərini qiymətləndirmək üçün nə baş verdiyini anlamaq lazımdır. Bunun əksi Ermənistan ərazisinin azalması ilə əlaqələndirilir. Yəni, indiyə qədər fəsadlar fəlakətlidir. Ölkə qısa müddətdə müharibə intizarında yaşayır. Rusiya Ermənistanın ehtiyac duyduğu təhlükəsizlik təminatçısı ola bilməz və o, yeni provayderlər əldə etmək üçün dönür. Amma belə çıxır ki, artan təhlükəsizlik yox, təhlükədir".

Ardı Səh. 7



# Qərbin çirkli Cənubi Qafqaz planı

## Aİ və ABŞ Rusiya və İranı Ermənistan üzərindən vurur

Əvvəli Səh. 6

### Ekspertlər nə deyir?

Ekspertlər artıq baş tutan danışıqları müxtəlif cür dəyərləndirirlər. Moskva Beynəlxalq Münasibətlər İnstitutunun Qafqaz sektorunun rəhbəri Vadim Muxanov hesab edir ki, ABŞ-Aİ-Ermənistan görüşü İrəvanın Rusiyadan hərbi-siyasi və hərbi-texniki baxımdan asılılığını azaltmaq istəyi ilə bağlıdır: "Bu hadisə Ermənistanın Rusiyadan Qərbə doğru yönəlmiş xarici siyasət xəttinə uyğundur. Bu baş versə də, ikitərəfli razılaşmalar qüvvədədir və İrəvan Moskvanın dominantlıq etdiyi bloklarda qalmaqda davam edir. Lakin Ermənistan tərəfi fərqli istiqamətdə addımlar atır. Geri dönüşün nə dərəcədə uğurlu və ya dərin olacağı məlum deyil".

İrəvandakı Qafqaz İnstitutunun direktoru, politoloq Aleksandr İskəndəryan əmindir ki, Paşinyanın səfərinin bir neçə məqsədi var. Onun sözlərinə görə, Ermənistanın Qərblə, indiki halda ABŞ və Avropa ilə qarşılıqlı əlaqəsini artıran görüşlər davam etdirilir. "Söhbət əməkdaşlığın inkişaf proqramlarından, iqtisadi inkişaf mexanizmlərinin təkmilləşdirilməsindən və təhlükəsizlikdən gedir. Sonuncu komponent Ermənistan üçün xüsusilə vacibdir", - deyə mütəxəssis əlavə edib.

Politoloq və Cənubi Qafqaz üzrə ekspert Andrey Areşev etiraf edib ki, danışıqlar zamanı Blinken və fon der Leyen diqqəti iqtisadi aspektlərə yönəltməyə çalışsalar da, tərəflər arasında əməkdaşlığın sırf təhlükəsizlik üzərində qurulduğunu çəkinmədən demək olar: "Qərb Cənubi Qafqazda homogen geosiyasi məkan formalaşdırmağa çalışır. Bu isə Rusiya və İran üçün ciddi problemlər yaradır. Buna qədər Qarabağ münaqişəsi buna mane olurdu, lakin 2020 və 2023-cü illərdə baş verən hadisələrdən sonra İrəvanın Qərbə doğru sürüşməsi qaçılmaz oldu".

### "Ağ-qara rəsm işləmir"

Paşinyanın Blinken və fon der Leyenlə danışıqları Ermənistan və Rusiya arasında münasibətlərin pisləşməsi fonunda baş verir. Azalma 2020-ci ildə Qarabağ münaqişəsinin yeni raundundan sonra başladı və üç il sonra Azərbaycanın bütün mübahisəli bölgəyə nəzarəti bərpa etməsi ilə möhkəmləndi. Belə ki, İrəvan Qarabağda dislokasiya olunmuş Rusiya sülhməramlılarını guya hərəkətsizliyə görə tənqid etdi, KTMT-ni Bakının Ermənistan sərhəddinə hücumlarına reaksiya verməməkdə ittiham etdi və təhlükəsizlik sahəsində Moskvadan asılılığı səhv adlandırdı. Ermənistan KTMT-dəki fəaliyyətini dondurdu, İrəvan bilərəkdən Rusiya prezidenti Vladimir Putinin "həbs edilməsinə" icazə verən Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsini ratifikasiya etməyə razılaşdı və Zvartnots hava limanından rus sərhədçilərinin çıxarılmasını tələb etdi.

Moskva Beynəlxalq Münasibətlər İnstitutunun əməkdaşı Vadim Muxanovun nöqteyi-nəzərindən Ermənistanla münasibətlərin soyuması 2020 və 2023-cü il hadisələrindən sonra gözlənilən idi, hazırda vəziyyət daha da pisləşib. "İrəvanla Moskva arasında müəyyən diplomatik sparrinq var, problemlər böyüyür. Bu yaxşı heç nəyə gətirib çıxarmayacaq. Qısa müddətdə Rusiya ilə Ermənistan arasında münasibətlər bütün postsovet dövründə olduğundan daha aşağı səviyyədə olacaq. Hələ o qədər də düşməyib, lakin tərəflər hələ dibə çatmayıb", - ekspert əlavə edib.

Erməni politoloq Aleksandr İsgəndəryan qeyd edib ki, İrəvanın Rusiyadan tamamilə Qərbə getməsindən hələ də danışmağa dəyməz, çünki daha çox onun imkanlarını diversifikasiya etmək cəhdi var: "Təhlükəsizlik sahəsində Ermənistan təkcə Qərbdə deyil, postsovet məkanından kənarda variantlar axtarır. İrəvan son vaxtlar əsasən Hindistandan silah alır. İqtisadiyyatda isə əksinə, Rusiya ilə qarşılıqlı faydalı əməkdaşlıq genişlənir. Primitiv ağ-qara şəkil bu halda işləmir - kimisə tərk etmək, kiməsə gəlmək. Bu, Ermənistanın təkcə region üçün deyil, ən azı bütün postsovet məkanı üçün həmin yeni vəziyyətdə sağ qalmaq cəhdidir".



Öz növbəsində Cənubi Qafqaz üzrə ekspert Andrey Areşev xatırladıb ki, Ermənistan KTMT-də iştirakını dondursa da, Aİİ-də hələ də Rusiya ilə işləyir. Onun sözlərinə görə, İrəvan bu il iqtisadi quruma sədrlik edir və bu təşkilat onun üzərinə müəyyən öhdəliklər qoyur. "İlin sonunda Ermənistan Aİİ-nin dövlət başçılarını qəbul etməlidir. Rusiya-Ermənistan münasibətlərindəki yadlaşmanı və İrəvanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutuna qoşulmasını nəzərə alsaq, bu öhdəliyin icrasını müşahidə etmək maraqlı olacaq", - ekspert yekunlaşdırıb.

"Paşinyan və ətrafına pul, kredit, xarici ölkələrə səfərlər və bəzi təşkilatlarda iştirak vəd edilib. Lakin reallıqda məsələ ondadır ki, Ermənistan ardıcıl olaraq Qərbin müstəmləkəsinə çevrilir.

Ermənistanın baş naziri, ABŞ dövlət katibi və Avropa Komissiyasının rəhbərinin görüşü Ermənistanın Qərb oyunlarına qarışmasının mərhələlərindən biridir. Rusiya nəhayət nə baş verdiyini anlamağa başlayıb". Bunu Aİİ İnstitutunun direktoru, rusiyalı politoloq Vladimir Lepexin deyib. Onun sözlərinə görə, Rusiyada uzun müddət Paşinyanın Qərbə doğru addımlarının təsadüf olduğunu düşünürdülər. "İndi nəhayət başa düşürlər ki, İrana qarşı müharibəyə hazırlıq gedir. Ermənistan İrana qarşı müharibə üçün tramplin olur. Bu görüşlər vəsvəsə xarakteri daşıyır. Avrointeqrasiya, NATO-nun müdafiəsi, Ermənistanın sivil dövlətlər ailəsinə qəbulu ilə bağlı vədlər verilir. Əslində Ermənistandan sadəcə olaraq Qərb qüvvələrinin maraqları üçün istifadə olunur", - deyə o qeyd edib.

Onun fikrincə, Ermənistan bundan daxildə və Cənubi Qafqazda vəziyyətin əlavə destabilləşdirilməsindən başqa heç nə qazanmayacaq. Lepexin hesab edir ki, İrana yaxınlaşmağın yeganə yolu Ermənistandan keçir. O hesab edir ki, bu görüş Qərbin Cənubi Qafqazda öz mövqelərini gücləndirmək üçün bu regionu İsraillə birlikdə öz geosiyasi maraqlarına uyğun nəzarət altına almaq üçün ardıcıl xətti çərçivəsində nəzərdən keçirməlidir. Ekspert qeyd edib ki, son üç ildə Rusiya faktiki olaraq Cənubi Qafqazdan sıxışdırılıb və indi növbə İrandadır. Rusiyanın hələ Cənubi Qafqazla bağlı mövqeyi yoxdur və heç nə edə bilməz. Əgər Rusiyanın xarici siyasəti milli maraqların prioritetinə doğru dəyişərsə, o, Cənubi Qafqaza qayıtmağa cəhd edə bilər, lakin hazırda yox. Qərb hazırda bir neçə istiqamətdə, o cümlədən fələstinlilərin İsraildən təmizlənməsi ilə "böyük İsrail" layihəsinin həyata keçirilməsi yolu ilə genişlənir. İkinci vəzifə İrana yaxınlaşmaq və onun təsirini minimuma endirmək üçün onu hərbi əməliyyatlara təhrik etmək və ola bilsin ki, bir faktor kimi İranı məğlub edib məhv etməkdir.

Rusiyaya gəldikdə isə, ikinci mərhələyə - Rusiya Federasiyasının NATO ilə, ola bilsin ki, Baltikyanı regionda, Polşada, Rumıniyada qarşıdurmaya cəlb edilməsi planlaşdırılır. Cənubi Qafqaza gəlincə, prioritet vəzifə region ölkələrini İranla qarşıdurmaya cəlb etməkdir. NATO Ermənistan vasitəsilə regiona nüfuz etməli və İranı təxribata çəkməlidir.

Maraqlı sual yaranır. Qərbin Ermənistanla əməkdaşlığa ehtiyacı nədir? Ermənistandan istifadə olunacaq. Paşinyana və ətrafına pul, kredit, xarici ölkələrə səfərlər və bəzi təşkilatlarda iştirak vəd edilib. Lakin reallıqda söhbət Ermənistanın ardıcıl olaraq Qərbin müstəmləkəsinə çevrilməsindən gedir. Qərbin coğrafi mövqeyindən başqa Ermənistan nəyə lazımdır? Bu coğrafi mövqe İrana hücum etmək üçün istifadə olunacaq. Ermənistandan Qərb dövlətlərinin, ilk növbədə, uzun müddət bölgə üzərindən xüsusi əməliyyatlar aparan İngiltərənin maraqları üçün istifadə olunacaq. London 2018-ci ildə Ermənistanda dövlət çevrilişi təşkil edib, öz adamlarını ölkə başına qoyub, sonradan Ermənistana qarşı hərbi əməliyyatlar təşkil edib və Ermənistanı get-gedə öz maraqlarının oyuncağına çevirir.

**V.VƏLİYEV**

# Bəşəriyyət erməni vəhşiliyinə etiraz edir




Bu gün dünyamız müxtəlif müharibələr, münaqişələrlə çalxalanır. Hətta vəziyyət o həddə çatıb ki, 3-cü dünya müharibəsinin baş verəcəyinə dair proqnozlar irəli sürülür. Dünyanın güc mərkəzləri isə susurlar. Sanki hadisələrin gərgin xarakter almasında özləri maraqlıdlar. Əslində bu versiya şübhə doğurmur. Çünki əgər belə olmasa idi ABŞ və Qərb İsrail- HAMAS və Rusiya-Ukrayna müharibələrinin dayandırılması üçün təsirli tədbirlər görədilər. Ancaq fakt ondan ibarətdir ki, dünyanın aparıcı dövlətləri müharibə aparan tərəflərdən birinə hər cür maliyyə, hərbi, siyasi dəstək göstərməklə yaşanan qarşıdurmaları bir qədər də alovlandırılar.

Hətta Fransa, Almaniya kimi bəşəriyyət üçün qorxulu ölkələr yanan alovun daha geniş coğrafi əraziləri əhatə etməsi üçün müxtəlif dövlətləri silah-sursatla təzhiz edirlər. Sözügedən ölkələrin davamlı şəkil də terroru dövlət siyasətinə çevirən Ermənistanı silahlandırmaları Makronun və Şoltsun insanlıq hissini tamamilə itirdiklərini göstərir. Çünki, erməni toplumunu silahlandırmaq, onlara revanşist hissini aşılamaq birbaşa bəşəriyyəti terrorla təhdid etmək deməkdir. Əminliklə demək olar ki, bu gün dünyada ən dəhşətli terror təşkilatı ermənilərin rəhbərlik etdikləri terror təşkilatlarıdır. Bu baxımdan dünyanın sivil xalqları erməni terrorunun məhv edilməsi üçün haqlı çağırışlarla çıxış edir, beynəlxalq təşkilatlara müraciətlər ünvanlayırlar. Görünən isə ondan ibarətdir ki, erməni toplumu dünya birliyinin sərt münasibətinə etinasız yanaşır.

## Erməni vəhşiliyi tarixə ləkədir

Tarixi reallıqlara istinad etsək, təəssüf hissi ilə qeyd edə bilərək ki, tarixin müyyən dönəmində erməni terrorunu beşikdə boğa bilərdik. Yəni elə etmək olardı ki, bu gün erməni toplumu olmazdı. Əgər erməni toplumu beşikdəcə boğulsaydı nəinki regionumuz, ümumiyyətlə dünyamız sakitlik tapardı, insanlar daha rahat, təhlükəsiz yaşayış əldə edərdilər. Ona görə də, biz bu günki nəsil Teymurləngi, Şah İsmayıl Xətaini, Nadir Şahı və digər sərkərdələri qınayırıq, erməni toplumunun kötüyünü vaxtında kəssəydilər, bu gün bizlər onların terrorunun qurbanı olub, əziyyət çəkməzdik. Etinazılıq göstərilməsindən bəhrələnən ermənilər böyük güclərin hərbi, siyasi dəstəyinə arxalanmaqla Cənubi Qafqazad yerləşdilər. Möhkəmləndikdən sonra isə azərbaycanlılara qarşı qətliamlar həyata keçirdilər, evləri dağıtdılar, şəhərləri, kəndləri viran etdilər. Nəticə də son iki yüz il ərzində 2 milyon azərbaycanlı erməni vəhşiliyinin qurbanı oldu, İrəvanı özünküləşdirdilər, Qafanı, Görusu, Qarakilsəni, Basarkeçəri, Dərələyəzi və digər onlarla yaşayış məskənimizi işğal etdilər. Tarixə nəzər yetirdikdə aydın olur ki, erməni toplumu bəzi güclərin dəstəyi ilə Azərbaycan ərazilərinə köçürlməsi prosesi on doqquzuncu əsrin sonu iyirminci əsrin əvvəllərin də daha sürətlə aparılmışdır.

Nəticə də XX əsrin əvvəllərində xarici ölkələrdən köçürülən ermənilərin sayının bir milyona çatması bölgədə demoqratik vəziyyətin tamamilə dəyişməsinə səbəb olmuşdur. Erməni daşnak millətçilərinin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır. 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda bu qırğınlar davam etmişdir. Erməni daşnaq quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq, uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər.Erməni quldur dəstələri yalnız Şuşa,Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında isə 200-dən çox yaşayış məntəqəsini dağıtmış əhalini vəhşicəsinə qətlə yetirmişlər.

Erməni terrorçuları hələ 1904-cü ilin sentyabrında Bakı şəhərində bir neçə azərbaycanlını qətlə yetirmişlər. Bu qətllər isə ermənilər tərəfindən xəbərdarlıq xarakteri daşımışdır. 1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl ixtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedivi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C. Libardyanın yazdığına görə üç il ərzində (1904-1906-cı illər) erməni terrorçuları 105 "siyasi qətl" törətmişlər. Bunların 56-sı ermənilərə qarşı, 32-si siyasi bəhanələrlə həm ruslara, həm də türk məmurlarına və zabitlərinə qarşı, 2-3-ü təsadüfən heç bir səbəb olmadan, qalanları isə bankirlərə və sələmçilərə qarşı olmuşdur.

## Bakıda qırğınları erməni milyonçuları təşkil etmişlər

1905-ci ilin fevralın 6-da Bakıda Mixaylov xəstəxanasının sənədlərinə görə erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqa maqnatların havadarlığı sayəsində terror qrupu 18 azərbaycanlını öldürmüş və 33 nəfəri yaralamışdır. 1905-ci ilin fevralın 7-də erməni terror təşkilatı Bakıda 100-dək dinc azərbaycanlını öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri 1905-ci ilin fevralın 9-da Bakı sakinlərini qətl və qarətlərə məruz qoymuşdular. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilər olan Balabek, Lalayev, Artyom Babayants, Akop Muradyan və Karen Saakyantsun evlərinə yığışmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış, ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin qırğınları tarixə "Bakı şəhərində qanlı qətliqən" kimi düşmüşdür. "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər. Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. 1905-ci il mayın 11-də Bakı şəhərində erməni terrorçuları Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A. Nakaşidzeni və Q. Takiyeskilini qətlə yetirdilər. Bu hadisəni şahid R.R. Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən qatillərdən biri Dro ləqəbli Drastamat Xanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldurları 1905-ci ilin mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarışılıqdan istifadə erməni saqqallıları on bir vətəndaş-dörd qadın, iki uşaq və beş kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə qarşı qanlı divan törətdilər. Çoxlu sayda qadın,qoca və uşağı öldürdülər.

Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürülmüş, evlərə od vuraraq yandırmışlar. Bütün silah növləri ilə təmin olunmuş erməni quldur dəstələri 1905-ci ilin 2 iyununda Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncələr verməklə onu öldürmüşlər. Bu vəhşiliklərini ermənilər 1988-1989-cu illərdə ermənistan torpaqlarından qovulan azərbaycanlılar üzərində də həyata keçirmişdilər. Erməni daşnaq dəstələri 1905-ci il iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər səhərisi Eçmiədzin qəzasındakı Persi, Nazzevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgu azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar. Erməni daşnaq dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905 -ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər.

1905-ci ilin avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakçıları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu,qardaşını və bir neçə nökər-naibini qətlə yetirdilər. Onların törətdikləri qanlı qırğınlarının məqsədi və yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. Ermənilərin piyada və süvari dəstələri 1905-ci ilin oktyabrın 3-də Azərbaycanın Sırxavənd müsəlman kəndinə hücum təşkil etdilər.

## Ermənilər Tiflisi qan gölünə çevirdilər

Erməni terrorçu dəstələri 1905-ci il noyabrın 21-də Tiflis əhalisinə qanlı və amansız divan tutaraq onları vəhşicəsinə qətlə yetirmişlər. Qırğında çoxlu sayda azərbaycanlı da işgəncələrlə öldürmüşlər. 1906-cı ilin yanvarın 1-dən erməni daşnak dəstələri azərbaycanlı kəndi Papravandə hücuma keçdilər. Kənd işğal olundu, qılıncla yarıldı, hələ dünyaya gəlməmiş körpələrin başlarını vurdular. Qırğına erməni quldur, qulağı kəsik Andranik Ozanyan başçılıq edirdi. Hələ əsrin əvvəllərində Rusiyanın Ərzurumdakı konsula general Q.Mayevski onun haqqında yazmışdı: "1901-ci il qışın əvvəllərində Andranik adlı birisinin erməni quldur dəstəsi Muş həndəvərində peyda olmuşdur".

1906-cı il iyulun 12-də erməni quldur dəstələri yaxınlığındakı erməni kəndlərindən 10 min nəfərə yaxın dəstə ilə Şuşa üzərinə hücuma keçdilər. Ərazidə döyüşlər beş gün davam etdi. Bütün evlərə bombalar yağdırıldı. Südəmər körpələri beşiklə birlikdə yandırır, anaların başını daşa çırpırdılar. 1905-1906-cı illərdə erməni bandaları Qarabağın yüzlərlə kəndini yerlə-yeksan etmişdilər. Bu dəstələr 1906-cı il iyulun 29-da azərbaycanlıların Karxana kəndinə hücum etdilər. Silahsız kəndlilər ermənilərə müqavimət göstərə bilmədilər. Kəndin bütün kişiləri erməni vandalları tərəfindən öldürüldü. Qaçıb təpəliklər arxasında gizlənmiş 30 qadın və uşağın yerini ermənilər dərhal müəyyən etmişlər. Buna səbəb gənc ana Pakizənin uşağının ağlaması olmuşdur. Hətta tarix bu körpə qızın adını da saxlamışdır-Firuzə. Qadınlar və uşaqlara da aman verməyərək onları qəddarcasına qətlə yetirmişlər. 31 mart qırğınları zamanı Bakı şəhərinin təkcə indiki qalaqapısı ərazisində qulaqları, burunları kəsilmiş və qarınları yırtılmış 100-ə yaxın azərbaycanlı qadının meyiti tapılmışdır. Gənc qadınların diri-diri divara mıxlanması erməni vandalizminin ən vəhşi nümunəsi sayıla bilər. Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün isə ermənilər şəhərin müvafiq yerlərində əvvəlcədən plemyotlar yerləşdirmişdilər. Burada canlarını qurtarmağa çalışan dinc sakinlərə və vətəndaşlara, bir sözlə, azərbaycanlılara aman verilmədən güllələbaran edirdilər. İrəvan quberniyası, Şərur, Dərələyəz, Qars və digər ərazilirdə azərbaycanlılara qarşı qırğınıarın törədilməsində fəal iştirakçılardan biri olmuş Ovanes Oqanesiyanın etirafları əsasında amerkalı jurnalist və yazıçı Ramistin Hartvil "İnsanlar belə imişlər" adlı kitab yazmışdır. Ovanes Oqanesiyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin Rusiyanın yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək təkcə Bakıda mart qırğınları zamanı 30 mindən çox azərbaycanlının qətlə yetirdiklərini bildirib.

## Ermənilərin işğal siyasətinə 2020-ci il sentyabırın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibəsi ilə son qoyuldu

1918-ci ildə Şamaxıda ermənilərin törətdiyi soyqırım zamam yanğından sonra tapılmış salamat qalan Quran səhifələridir. Hazırda Azərbaycanın dini mərkəzi hesab olunan Şamaxı Cümə məscidinə insanlanları kütləvi şəkildə dolduraraq dir-diri yandırmışdılar. Tarixi faktlara və sənədlərə istinadən o fikri də qeyd etmək olar ki, Cavanşir qəzasında 28 kəndi, Cəbrayıl qəzasında 17 kəndi tamamilə yandırılmış və minlərlə insan öldürülmüşdür. 1918-ci ilin aprel ayının 29-da Gümürü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü erməni pusqusuna düşərək, son nəfərədək öldürülmüşdür.

Erməni silahli dəstələri Naxçıvan qəzasında 45, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi yandırılmış, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüşdür, 50 min azərbaycanlı qaçqın düşmüşdür. İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı soyqırıma məruz qalmışdır, kəndlər isə yerlə yeksan olunmuşdur. 1920-ci illn may ayında ermənilər Rusiyanın 9-cu Qızıl Ordunun iştirakı ilə Gəncədə 12 mindən çox azərbaycanlını qətlə yetirilmişlər. Sonrakı mərhələlərdə də, yəni Sovetlər İttifaqının yaradılmasından sonrada ermənilər Azərbaycana qarşı öz düşmənçilik və qətliam siyasətlərindən əl çəkməmiş "böyük Ermənistan" yaradılması iddialarını gerçəkləşdirmək üçün hər cür iyrənc və yaramaz vasitələrdən istifadə etməyə çalışmışlar.Tarixin sonrakı dövrlərində də ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətini davam etdirmişlər. Xüsusilə də 1988-ci ildən sonra ermənılər xarici maraqlı dövlətlərin himayədarlığı, hərbi, siyasi dəstəyi ilə Azərbaycanın tarixi torpaqlarını işğal edib, yüz minlərlə insanı ev eşiyindən didərgin saldılar. İşğal zamanı ermənilər şərhələri, kəndləri dağıdıb, min illərlə yaşı olan tarixi, memarlıq nümunələrini yer üzündən sildilər.

Ermənilərin işğal siyasətinə 2020-ci il sentyabırın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibəsi ilə son qoyuldu. Artıq Qarabağımız rahat nəfəs alır, aparılan geniş quruculuq, tikinti və bərpa işləri fonunda əhali öz doğma yurdlarına qayıdılar. Bu isə bir daha onu təsdiq edir ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşən uca millətmizin qarşısını heç nə, heç bir qüvvə kəsə bilməz. Xalq öz Lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə istənilən maneəni dəf etməyə, böyük uğurlara imza atmağa qadirdir, necə ki, bu gün xalq Prezident İlham Əliyevin rəhbərliyi ilə qürurverici qələbələr, zəfərlər dövrünü yaşayırıq.

**İLHAM ƏLİYEV**




# Fitrə zəkatı paytaxt sakinləri üçün hansı anlama gəlir?

***Fitrə zəkatı - Fitr bayramından əvvəl ehtiyacı olan müsəlmanlara verilməli olan sədəqədir. Fitrə zəkatının verilməsində məqsəd imkansız və ehtiyacı olanların Fitr bayramını digər müsəlmanlarla birgə qeyd etmələrinə kömək etmək, eləcə də orucluq ayı ərzində mümkün səhv və nöqsanların kəffarəsini ödəməkdir.***

Fitrə zəkatını ramazanın son günündə, məğrib azanından sonra ayırmaq və Fitr bayramı günü bayram namazı qılmazdan əvvəl öz ünvanına çatdırmaq müstəhəbdir. Əgər bu mümkün olmazsa, bayram namazı qılınandan sonra mümkün olan ən qısa vaxt ərzində ödənməlidir. Ev sahibi özü üçün və dolanışığı onun öhdəsində olan şəxslər üçün (yaşından asılı olmayaraq) fitrə zəkatı ayırıb ödəməlidir. Fitrə zəkatının miqdarı həmin bölgədə daha çox istifadə edilən aşağıdakı ərzaq növlərinin birindən adambaşına bir sa, yəni 3 kq olmaqla hesablanır: buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı. Bu ərzağın qiymətinə uyğun olan məbləğdə pul da verilə bilər. Fitrə zəkatı maddi vəziyyəti çətin olan adamlara (fəqirlərə) verilməlidir. Hər kəs öz kasıb qohumuna ya qonşusuna fitrə zəkatı versə, daha yaxşıdır. Cəfəri məzhəbinə görə, ramazanın sonuncu günündə, iftar vaxtı gəlmiş qonağın fitrə zəkatı da ev sahibinin boynundadır. Maddi durumu həddən artıq pis olan ailələr fitrə zəkatını ödəməkdən azaddırlar. SİA şəhər sakinləri arasında "Fitrə zəkatı verəcəklərmi, fitrə zəkatı onlar üçün hansı mənanı daşıyır? Ramazan bayramını harada qeyd edəcəklər?" mövzusunda sorğu keçirib.

**Şəhər sakini Rəqsanə Məmmədova:** "Hal-hazırda oruc tutmuram, amma bir vaxt tuturdum. Namaz qılan adam deyiləm. Müsəlmanıq, insanlara kömək etməliyik. Fitrə zəkatının verilməsi mütləqdir. Hər bir azərbaycanlı vətəndaşına zəkat verməliyik. Hər bir insan fitrə zəkatı çıxarmalıdır. Fitrə zəkatı buğda ilə hesablanır, amma insanlara görə zəkat veririk deyə, onu düyü ilə hesablayırıq. Hər adam başına iki-üç kilosu yetməlidir. Zəkat adam başına 10-15 manat arası çıxmalıdır. Bu, hər il mütləq olmalıdır. Əslində imkanlı insanlar çalışıb mütləq imkanı olmayan insanlara kömək etməlidirlər. Biz gələcəkdə - digər dünyada bunların bəhrəsini görəcəyik".



**Şəhər sakini Gövhər Həsənova:** "Oruc tutmuram, həm şəkər, həm də xərçəng xəstəsi olduğum üçün. Amma fitrə zəkatı verirəm. Ailə üzvlərinin sayına görə zəkat çıxarıram. Evimdə oruc tutanım var. Allah qoysa, Ramazan bayramında bayram süfrəsi açacam. Fitrə zəkatı kasıblara, əlsiz-ayaqsızlara əl tutmaqdır. Özümüz də zəif olsaq da, həmişə qızım fitrə zəkatı verir. Ümumiyyətlə, həmişə kimsəsizlərə əl tutur".

**Şəhər sakini Cəmil İsmayılov:** "Ramazan bayramını bağda keçirəcəyəm. Fitrə zəkatı verirəm. Oruc tuta bilmirəm, çünki gündə 5 dəfə dərman qəbul edirəm. Vaxtilə oruc tutmuşam, Həcc ziyarətində olmuşam. Hər qayda-qanuna da riayət edirəm. Fitrə zəkatını bayram, orucluq üçün verirlər, ancaq həmişə verilməlidir. Varındırsa verməlisən, yoxundursa, başqa məsələ. Fitrə zəkatını hamı dolansın deyə verirlər. Onun bizə faydasını Allah bilir. Bizə faydası savabıdır. Olan xeyri sən bilmirsən, Allah görür".

Şəhər sakini Xatirə Sadıqova: "Fitrə zəkatı verirəm. Gəlirimin faizini hesablayıram, fikirləşirəm ki, kimin ehtiyacı varsa, ona uyğun zəkat çıxarıram. Fitrə verməyin mənası odur ki, kiməsə kömək edirsən, o da dolanır. Oruc tuturam. Ramazan bayramını da evdə keçirməyi planlaşdırıram".

**Şəhər sakini Gülşən Məmmədova:** "Fitrə pulu çıxarıram, amma namaz qutularına qoymuram. Mən kasıblara, internetdə xəstə olan, kömək istəyən insanlara verirəm. Ancaq nəzir qutusuna vermirəm. Quranda fitrə zəkatı vermək yoxdur. Çox din xadimindən soruşmuşam, olmadığını deyiblər. Kasıblara ürəkdən verirəm. İmkanları yoxdur deyə, yardım edirəm. Fitrə zəkatı yardım etmək üçündür. Şəkər xəstəsiyəm deyə oruc tuta bilmirəm. Ramazan bayramını evdə keçirəcəyəm. Bişirib qonşuları çağıracağam. Rus qonşularımız var. Çox yaxşı münasibətimiz var. Onlar da məni Paskal bayramında qonaq edirlər. Gərək sülh olsun. Biz tolerant ölkəyik. Hətta ən tolerant ölkəyik".

***Söylü Ağazadə***

# Əli Kərimli terrorçunun "hüquqlarının müdafiəsin"ə qoşuldu



Böyük qələbədən sonra xarici məkrli dairələr geniş şəkil də ölkəmizə qarşı qara piar kampaniyası aparırlar. Arada bir separatçı qərarlar qəbul etməklə Azərbaycana təzyiq etməyə çalışırlar. Bu cür pozucu və məkrli layihələrlə kifayətlənməyib əlaltıları rolunda çıxış edən Azərbaycanın dağıdıcı müxalifətindən və xaricdəki antimilli ünsürlərdən istifadə etməklə ölkəmizdəki möhkəm əsaslara malik sabitliyə xələl gətirməyə çalışırlar. Düşünmək olar ki, niyə kifayət qədər yaşı və başları olan dağıdıcı müxalif ünsürlər xarici pozucu şəbəkənin qara işlərinin icraçısı rolunda çıxış edirlər?



Təbii ki, sualın cavabını düşünərkən ilk ağıla ayrılan maliyyə yardımları gəlir. Lakin əsas amil bu deyil. Haradasa səbəblər sırasında maliyyə yardımlarının ayrılması da dayanır. Lakin başlıca amil özlərinə siyasi dayaq əldə etmələridir. Məhz siyasi dəstək hesabına öz ağılsız böhtanlarını xarici mediada və ya ayrı-ayrı ölkələrin parlamentlərinə çatdırmaq imkanı əldə edirlər. Nəzərə almaq lazımdır ki, dəfələrlə Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərlərinin şər və böhtanlarından ibarət olan müraciətləri, anormala bəyanatları beynəlxalq təşkilatlara çatdırılıb. Hətta qondarma "siyasi məhbus" siyahıları xarici məkrli dairələrin dəstəyi ilə müxtəlif media orqanlarında və beynəlxalq təşkilatlarda yayımlanıb.

### Əli Kərimli ABŞ-ın və Fransanın qaranlıq dairələrinin mövqeyini səsləndirir

Bu və digər amilləri nəzərə aldıqda aydın olur ki, dağıdıcı müxalifətin xaricdəki ermənipərəst dairələrlə könüllü və "səmərəli" əməkdaşlığının kökündə əsasən özlərinin şər və böhtanlarına "legitim"lik alıb, onları BBC, Vaşinqton Post, Azadlıq radiosu və bu kimi digər şər yuvalarında yayımlanması dayanır. Bu cür əməkdaşlıq dağıdıcı müxalifətə ikitərəfli məqbul variant hesab olunur. Birincisi, şər və böhtanlarını beynəlxalq media orqanlarında tirajlanmasına nail olurlar, digər tərəfdən isə onların bəd əməllərinin və planlarını Azərbaycanda icra etməklə qranlara alırlar. Ona görə də dağıdıcı müxalifət sosial şəbəkələrdə və internet TV-lər də milli və dövlətçilik maraqlarına ziddi fikirlər səsləndirib, statuslar paylaşırsa deməli öz sözlərini deyil, başqalarının qərəzli fikirlərini ifadə edirlər. AXCP sədri Əli Kərimli açıq şəkildə ABŞ-ın və Fransanın qaranlıq dairələrinin mövqeyini tirajlayır. Halbuki, sözügedən dövlətlərin bəzi üzdəniraq vəzifəli şəxslərinin Azərbaycana yönəlik haqsız və ədalətsiz mövqeləri Azərbaycan cəmiyyətində haqlı narazılıqlar yaradır. Bu yaxınlarda isə Fransanın Azərbaycanda casus şəbəkəsi ifşa olundu, eyni zaman da bir fransız Bakıda metroya daxil olub, təxribatlar törətməyə cəhdlər göstərdi, Fransada Azərbaycanın görkəmli şairəsi Xurşudbanu Natavanın abidəsi təhqir edildi dağıdıcı müxalifətin dil qəhrəmanları susmağa üstünlük verdilər. Sual olunur, yeni Cəmil Həsənlinin, Arif Hacılının, Ə.Kərimlinin bütün bunlardan xəbərləri yoxdur? Niyə dağıdıcı müxalif ünsürlər Azərbaycan cəmiyyəti ilə həmfikir deyil? Susmaları və özlərini lal və kar kimi göstərməyə çalışmaları onu deməyə əsas verir ki, ya Cəmil Həsənli, Arif Hacılı, Əli Kərimli həmin casus şəbəkəsinin içindədir, ya da Avropa mərkəzlərindən susması üçün maddi yardımlar alır. Çünki necə ola bilər ki, hər xırda məişət məsələsinə münasibət bildirən, bəzən siyasi divident əldə etmək xatirinə hay-küy qaldıran dağıdıcı müxalifət qeyd etdiyim məsələlərlə bağlı mövqe bildirmir ?

### Dağıdıcı müxalifət milli hissi itirib

Təbii ki dağıdıcı müxalifətin cavab verməli olduğu çoxsaylı suallar mövcuddur. Lakin inandırıcı deyil ki, bu ünsürlər bu suallara cavab versinlər. Çünki torbalıdılar, xarici maraqlı dairələrin yanında gözü kölgəlidilər. Ö dərəcə əlləri xarici məkrli dairələrin cibində dərinə işləyib ki, Əli Kərimli və Cəmil Həsənli terrorçu Ruben Vardanyanın "hüquqlarının müdafiə" təşkilatına qoşulublar. Düzdür bunu rəsmi şəkil də etməkdən çəkiniblər. Yəni açıq şəkil də dostlarının müdafiə etdiklərini nümayiş etdirməyiblər. Sadəcə Ruben Vardanyanın cinayətkar əməllərinə haqq qazandırmaları və terrorçuları maliyyəşdirilməsinə münasibət bildirməmələri dağıdıcı müxalif ünsürlərin Vardanyanın pullarına aşiq olub, onu müdafiə edənlərlə eyni sırada olmalarını göstərir. Nəzərə almaq lazımdır ki, ermənipərəst dairələr terroru maliyyələşdirən, dəstəkləyən, buna görə də mühakimə olunan, cəza çəkən R.Vardanyanın Nobel Sülh Mükafatına namizədliyini irəli sürüblər. Təbii ki, bu siyasi riyakarlıq, ikiüzlülük və açıq şəkil də terrorun çiçəklənməsinə göstərilən dəstəkdir. Bütün hallarda demokratik düşüncəli dünya xalqları belə mövqe sərgiləyənləri haqlı olaraq qınayırlar. Təəssüf ki, dağıdıcı müxalifət R.Vardanyanın müdafiəsinə qalxanlarla eyni sırada durmağa üstünlük verirlər. Buna başqa cür ad verməkdə mümkün deyil. Çünki baş verənlərə münasibət bildirilmirsə və susqunluq göstərilirsə deməli milli hissi itiriblər, xarici maraqlı dairələrdən sifariş alıblar.

***İLHAM ƏLİYEV***



MƏTANƏT

# Qardaşlı bacılar, bacısız qardaşlar...

**10 aprel Beynəlxalq Qardaş və Bacılar Günüdür. Elə bu gündən yola çıxaraq ailələrimizdə bacı həsrəti çəkən qardaşlardan danışmaq, bəzən öz əllərimizlə pozduğumuz bioloji faktora nəzər salmaqla, bacıları qətiyyən qardaşsız qoymayan, lakin qardaşları bacısız qoyan bizlərdən söhbət açmaq istəyirəm.**

Öncə vurğulayım ki, 1990-cı illərdə uşağın cinsiyyətinin bəlli olması ilə əlaqədar USM (ultrasəs müayinəsi) dəbə düşdü. Həkimlər hamilə qadınları bu müayinədən keçirməklə, qız və yaxud oğlu olacağını təyin edirdilər. Bu iş isə baxırdı həkimə. Savadlı, bacarıqlı həkim bunu düz təyin edə bilirdi. Təyin edə bilməyən həkimlərinsə "verdiyi söz" çox halda yalan çıxırdı: ana oğlan gözlədiyi halda, dünyaya qız gətirirdi. Lakin zaman-zaman bu müayinə üsulu daha da təkmilləşdirildi, həkimlər də bu sahədə peşəkarlaşdı. Beləliklə, kim hansı cinsdən uşaq dünyaya gətirmək istədisə, onu edə bildi. Bioloji tarazlıq da bununla pozulmağa başladı.

Əvvəllər ailələrdə beş bacının bir qardaşı, dörd qardaşın bir bacısı olurdu. İki oğlan-üç qız, dörd qıziki oğlan olan ailələr vardı. Və yaxud da qardaşsız, bacısız uşaqlar da olurdu. Yəni Allahın verdiyinə insanlar tabe olurdu. Daha sonralar isə USM-lə Allaha qarşı çıxdıq və Allahın məsləhət bilmədiyini bizlər məsləhət bildik. Beləliklə, çox uşağın olmasını lazımsız hesab etdik.

Biz nə zaman dünyaya gətirdiyimiz qıza qardaş, qardaşa bacı verə bilirik? Məsələn, bir ailədə ard-arda iki oğlan uşağı doğulubsa, burada artıq qıza ehtiyac olmadığını düşünənlər var. Lakin bir ailədə ard-arda iki qız uşağı doğulubsa, nəyin bahasına olursa-olsun, üçüncü uşaq dünyaya gəlməlidir, bu, oğlan olmalıdır. Və yaxud da birinci uşaq oğlandırsa, artıq heç bir narahatlıq olmur, əşi, ikinci nə olur, olsun. Lakin birinci qızdırsa, ikinci hökmən oğlan olmalıdır. Bunu isə USM tənzimləyir.

USM sayəsində artıq illərdir ki, ölkəmizdə oğlanlar qızlardan çox doğulur. Bu gün doğuş göstəricilərinə görə cins nisbəti hər 100 qıza 112 oğlan təşkil edir. Göründüyü kimi, günün adı da Beynəlxalq Qardaş və Bacılar günüdür. Elə burada da qardaşın önə keçməsi heç də təsadüfi deyil. Nədənsə bütün dünya oğlanla qız arasında bir ayrı-seçkilik içərisindədir. Bunun səbəbini insan övladı hələ də anlamadan elə öz iddiasında qalmaqdadır.

Vaxtilə bəzi ölkələrdə qızların doğulması ilə yasa batmaq, onların qətlə yetirilməsi kimi hallar da olub. Qızı və yaxud oğlu olanlar arasında fərq kimi adətlər də olub. Bizdə isə həmişə öz aktuallığını qoruyan belə bir deyim var: Allah sənə şirin bir pay versin. Bu şirin pay isə oğlan övladı olub.

Bütün bu ayrı-seçkiliklərə baxmayaraq, gəlin, bacılara qardaş düşündüyümüz kimi, qardaşlara da bacı düşünək. İlkimiz, ikincimiz qızdırsa, üçüncü hamiləlikdə xəstəxana yollarında qalıb, USM-dən keçərək uşağın cinsini öyrənib oğlan olduğuna əmin olandan sonra könlümüz rahat olduğu kimi, əşi, iki oğlum var da, nə edirəm üçüncü uşağı deməyək. O qardaşlara axı bacı lazımdır.

Ümumiyyətlə, evlərimizin yaraşığı uşaqlardır. Onların hansı cinsdən olmasına baxmayaraq, uşaqlar bir dünyadır. Qaldı onların cinsini zərrəbinlə düşünən ailələrə, qoy onlar heç olmasa, oğlan-qız tarazlığını pozmasın. Beynəlxalq Qardaş və Bacılar günündə hər kəs yanında qardaşını, bacısını görə bilsin.

# "Azərbaycan-Türkiyə əlaqələri tariximizin ən yüksək dövrünü yaşayır"

*MÜNASİBƏT*



"Bu gün Azərbaycan-Türkiyə əlaqələri tariximizin ən yüksək dövrünü yaşayır". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib. O bildirib ki, ölkələrimizarası münasibətlər Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Sevinciniz sevincimiz, kədəriniz kədərimizdir" müdrük kəlamları üzərində qurulmuşdur. Dostluq və qardaşlığımız çoxlu tarixi sınaqlardan üzü ağ çıxmışdır. Xalqlarımız həmişə bir-birinin yanında olmuş, bir-birinə dəstək vermiş və eyni mövqedən çıxış etmişdir. O cümlədən İkinci Qarabağ müharibəsi başlayanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın hər cür yardımla "Can Azərbaycanın yanındayıq" deməsi ölkəmizə qarşı yönəlmiş çirkin əlləri geri çəkindirmişdir.

O cümlədən Türkiyədə baş vermiş əsrin faciəsi olan zəlzələ zamanı dövlətimiz və xalqımız türk qardaşlara yardımların göndərilməsi üçün bütün imkanlarını səfərbər etdi. Azərbaycan dağılmış Kahramanmaraşda 1000 evlik yaşayış kompleksini tikir. O cümlədən işğaldan azad olunmuş ərazilərin yenidən qurma və bərpa işlərində Türkiyə yanımızdadır.

Mövlüd Çavuşoğlu Türkiyənin XİN rəhbəri olduğu vaxtda bütün tribunalardan Azərbaycanın haqq işinə dəstək vermişdir. Çavuşoğlu Azərbaycanı öz canı qədər sevən bir şəxsdir. İndi də Türkiyə Millət Məclisinin üzvü olaraq yenə də Azərbaycana öz dəstəyini ifadə etməkdə davam edir. Dövlət başçılarımız yenidən seçiləndə ilk xarici səfərlərini bir-birimizin ölkələrinə edir. O cümlədən digər rəsmilər də dövlət başçılarımızın qoyduğu yolu ilə gedirlər. Bu baxımdan Mövlüd Çavuşoğlunun da ölkəmizə səfərini yüksək dəyərləndirirəm. Məhz dövlət başçısı tərəfindən qəbul olunması Mövlüd Çavuşoğlunun şəxsiyyətinə və onun ölkəmizə olan böyük məhəbbətinə verilən böyük dəyər olduğunu hesab edirəm".

***Söylü Ağazadə***



# ACGÖZLÜK: insanın sonu

Ulu Yaradan tərəfindən təəssüf ki, insan övladına acgözlük kimi bir xüsusiyyət də bəxş olunub. Bəlkə də bəxş olunub ki, əsl insanlığı ortaya çıxarsın; gözü toxlar acgözlərdən fərqlənsin. Və acgözlər sonda dünya malının dünyada qaldığını anlayıb toxgözlərin qazandıqlarına köks ötürsünlər. Onların mənəvi zənginliyinə həsəd etməklə, ömür boyu üst-üstə yığdıqlarının əslində dəyərsiz olduğunu anlasınlar. Bəs belə olan halda nə üçün bəzi insanların gözü acdır? Bilə-bilə ki, sonda hər kəs kimi eyni qayda ilə dünyasını dəyişəcək, bu dünyadan o biri dünyaya heç nə apara bilməyəcək, yenə də acgözdür, yenə də nə isə qazanmağa, mal-dövlətini artırmağa çalışır. Deməli, acgözlük elə bir hissdir ki, həm də insanı sağlam düşünməkdən uzaq edir.

## Acgözlük həm də anormallıqdır

Acgözlük əslində həm xəstəlik, həm anormallıq, daha böyük mənada isə bəladır. Nə üçün? Elə adamlar tanıyırıq ki, dünya malından doymur ki, doymur. Sanki bir xəstəliyə tutulubmuş kimi mal-dövlət yığır, hər an bunu bir az da artırmağa çalışır, həm də yığdığını elə qoruyur ki, amandır, birdən üstündən bir qəpik o yan-bu yan ola bilər. Belə insanlarda acgözlükdən yaranan ikinci bir xüsusiyyət-simiclik də vardır. Yığır, lakin xərcləmir. Ailəsində həyat yoldaşı, uşaqları nəyəsə ehtiyac duyur, lakin baxmayaraq ki, onu qarşılaya bilər, lakin edə bilmir. Çünki evin kişisi simicdir, mal-dövlətinin çox olmasına baxmayaraq bir qəpik belə xərcləmək istəmir.

Acgözlük həm də anormallıqdır. Çünki insan pul yığmalıdır, mal-dövlət toplamalıdır kimi normal olmayan bir istəyə malik olur. Yəni, sağlam şəkildə düşünə bilmədiyi üçün anormaldır. Hər şeyin özünün olmasını arzulayır, buna can atır. Və topladığını qorumaq üçün canından keçməyə hazırdır. Bütün günü əlində olanları orada-burada gizlədir, fikri-zikri qalır yanında ki, birdən kimsə tapar, kimsə aparar. Beləliklə, anormal və narahat bir həyat yaşayır.

Bütün bunların fonunda isə söyləmək olar ki, acgözlük böyük bir bəladır. Müalicəsi olmayan xəstəlik, çıxışı olmayan yol, qurtuluşu olmayan psixoloji durumdur. Elə bir vəziyyətdir ki, insanı gündən-günə didib-parçalayır, məhv edir. Onda yeni xarakterlər-həsəd, paxıllıq, riyakarlıq, nankorluq kimi xüsusiyyətləri də formalaşdırır.

Hər kəsdə olmadığına görə acgözlüyü bir simptom adlandırmaq daha doğru olardı. Bu, bir şəxsdə də təzahür edir, bir nəsildə-kökdə və ya ümumilikdə bir xalqda da. Bunlara ayrı-ayrılıqda nəzər salaq.

## Qonşunun var, mənim niyə olmasın?..



Bəzən insan o dərəcədə acgöz olur ki, elə bu səbəbdən də, necə deyərlər, min ərşin quyunun dibinə yuvarlanır. Bu o səbəbdən olur ki, kiminləsə bəhsəbəhsə düşür. Onda olanların özünün də sahib olmasına çalışır. Məsələn, qonşunun 2-3 mərtəbəli evi var, mənim də olsun, maşını var, mənim də olsun, uşağına dəbdəbəli toy etdi, mən nə üçün etməyim? Nəvəsinə kiçik toy etdi, mən də etməliyəm, qızına dəbdəbəli ad günü keçirdi, mən də etməliyəm. Bax bunların hər birini kiməsə həsəd etməklə həyata keçirməyə cəhd edən adam zaman-zaman acgözlüyün qurbanı olur. Borc alır, qaytara bilmir, kredit götürür, ödəyə bilmir. Əlində olanı xərcləyir, ehtiyacdan qurtara bilmir.

Axı sənin özünəməxsus evin var, nə üçün imkanların xaricində olanını arzulamalısan. Axı sən maşın almaq imkanında deyilsən, nə üçün kiminləsə bəhs edirsən. Oğluna-qızına dəbdəbəli toy etmək gücün yoxdur, nə üçün bunun üçün özünə problem yaradırsan? Nəvənə kiçik toy etsən də, etməsən də heç bir məna kəsb etmir, nə üçün bunu hökmən etməlisən? Çünki acgözlüklə həsəd hissi bir-birinə qarışıb bəzi insanları məhvə aparan yola çıxarır. Bu yol uzun və keşməkeşlidir. Bu daşlı-çınqıllı yollarda yıxılıb dizlərindən qan süzənlər görmüşük, lakin qalxıb bir az ağrıları keçəndən, yaraları sağalandan sonra eynilə yoluna davam etməyə çalışıb. Nə ağrıları, nə də yaraları onun ac gözünü doyuzdura bilməyib.

Və yaxud da bu yolda digər insanlarla da qarşılaşmışıq. Bəli, onların da gözü acdır, lakin birinci gözüaclardan fərqli olaraq, bunlar mal-dövləti olanlardır. Lakin o mal-dövlətdən bir qəpik belə xərclənməsini istəməyənlərdir. Onlar bu çətin, daşlı yollarla irəliyə doğru addımlayır. Təbii ki, mal-dövlətlərini artıra-artıra, xərcləmədən. Yolun başına çatanda ömür də başa çatır, dünya ilə vidalaşırlar, illərlə yığıb mühafizə etdikləri isə bir neçə ayın, həftənin qurbanı olur. Ətrafındakılar bu mal-dövləti necə dağıdırlarsa, ondan əsərələmət qalmır. Hansı ki, sahibi dünya nemətlərindən məhrum qalmaqla onu toplamışdı.





Nəsillər var ki, onları yaşadıqları ərazilərdə hamı acgöz nəsil kimi tanıyır. Bu nəsillərə məxsus adamlar mal-dövlət hərisidir. Yığa bildikcə yığan, doymayan, həm də ürəkləri daş insanlardır. Nə bir yetimin başına əl çəkir, nə qapılarına diləyə gələni əlidolu qaytarır, nə də həyətdə-bacada ayaqlarına dolaşan it-pişiyə bir tikə çörək verirlər. Həyatı yalnız özləri üçün yaşayırlar.

## Acgözlük: həm maddi, həm mənəvi

Acgözlük həm də tək maddiyyat üzərində qurulan bir xüsusiyyət deyil. Mənəvi cəhətdən acgöz olan insanlar da var. Məsələn, yalnız pislik etmək üçün yaranan və pislik etdikcə də gözü doymayan insanlar var. Həyatı yalnız ziyan vurmaqla keçən, bundan ləzzət alan insanlar var. Əxlaqi dəyərləri acgözlüyünə qurban olan insanlar da var. Acgözlüyün bu növləri əslində mal-dövlət hərisi olanlardan daha dəhşətlidir. Belə ki, bu cür insanlar ancaq insanların pis gününə sevinir, pis gün yaşamaları üçün əlindən gələni edir. Və yaxud da qonşuya, qohuma ziyan vuran, bundan doymayan, "daha nə edim",- deyə düşünən, gecə-gündüz yol axtaranlar da var. Eləcə də əxlaqı acgözlüyünə qurban gedən insanlar da var ki, bələləri ilə mübarizə aparmaq daha çətindir. Onlar bu xüsusiyyətləri ilə ailələrinə, əxlaqi dəyərlərə xəyanət edir, yaxınlarının böyük cəhdlərinə baxmayaraq bu yoldan çəkinə bilmirlər.

Beləliklə, acgözlük bu xüsusiyyətlərə malik insanların sonunu vaxtından əvvəl gətirir. Bir el məsələndə deyildiyi kimi, su səhəngi suda sınar, bu insanlar da öz əqidə və əməllərinin qurbanı olurlar. Acgözlük kimi cılız hisslər belə insanların içlərini gəmirməklə, onları vaxtından əvvəl məhv edir. Necə ki, qurd ağacın gövdəsini yeməklə onun qurumasına səbəb olur, bu hisslər də onun kimidir. Zaman-zaman insan övladının sonunu hazırlayır.

## Acgöz həm də nankordur

Başqa cür düşünmək mümkün deyil: acgöz insan həm də nankor olur. Bunu qonşu ermənilərin simasında o qədər bariz şəkildə görmüşük ki, ona görə belə əminliklə söyləyə bilirik. Bu acgözlər süfrəmizin kənarında qır-qırıntı yeyə-yeyə nələrin iddiasında imişlər, illərdir ki, yaxşı gördük. Sən demə özünü miskin vəziyyətə salan qonşumuz əslində acgöz kimi cılız keyfiyyətə malik imiş. Elə bunun üçün də min bir dona girir və istəyinə çatmaq üçün riyakarlıq edirmiş. Bu riyakarlıqla da acgözlükləri ildən-ilə daha çox meydana çıxdı. Torpaqlarımızı işğal etdilər, gözləri doymadı. Soydaşlarımızın mal-dövlətini mənimsədilər, evlərinin dam örtüyündən tutmuş qapı-pəncərəsinədək söküb satdılar, gözləri doymadı. O torpaqların yeraltı-yerüstü sərvətlərini xarici bazarlara daşıyıb valyutaya çevirdilər, yenə gözləri doymadı. Çünki bu xalqın qanında acgözlük var. Bu hissi heç nə ilə azalda bilmirlər. Tarixən bunların acgözlüyü təsdiq də olunub. Digər xalqlar da onların gözlərinin ac olduğunu, heç vaxt doymadığını təsdiqləyib. Və millətlərə onlardan ehtiyatlı olmağı tövsiyə ediblər.

Beləliklə, biz erməniləri tanıyandan onların acgözlüyünə bələd olmuşuq. Həmçinin də acgözlükdən doğan nankorluqlarına. Onlar süfrəmizin kənarında yedikləri çörəyi də unutdular, onlara edilən hörməti də.

İllər, əsrlər sonra da onlar bu xüsusiyyətlərindən əl çəkməyəcək. Ona görə ki, bu cür yaranıblar. Allah-təala onlara belə cılız hissləri verib, "özünüzü dünyada rəzil-rüsvay edin",- buyurub. Elə 2020-ci ilin 44 günlük İkinci Vətən müharibəsi başlayarkən də bunların acgözlüyünün şahidi olduq. İşğal etdikləri azmış kimi, yeni torpaq iddiasına düşmüşdülər. Lakin arzuları ürəklərində qaldı. Yeni acgözlüklərin qarşısı, köhnə acgözlük nəticəsində qazanılanlar əllərindən alındı. Nankorluqları bir daha onunla təsdiq edildi ki, soydaşlarımız yaşayan ərazilərdə daşı daş üstündə qoymamışdılar. Talayıb, sonra da od vurub yandırmış, insanların evеşiyini xarabazara çevirmişdilər.

## Acgöz olma, sənin deyil bu saray...

Bəli, dahi Nizami Gəncəvinin dediyi kimi, ey insan, acgöz olma, sənin deyil bu saray. Bu saray dünyadır. Sənsə bu dünyaya qonaq gəlmiş, müəyyən vaxt sonra öz əbədi məkanına qayıdacaq varlıqsan. Belə isə bu dünyadan oğurladıqların, mal-dövlət, bir qarış torpaq, digər mənəvi zəifliyinin nümunələri əbədi sənin olacaqmı, düşünürsən? Xeyr, olmayacaq. Onlar bu dünyaya məxsusdur. O dünya ki, əlindən hər şeyi alıb səni haqq dünyasına yola salır. Səninlə o dünyaya gedən isə yalnız insani duyğular, mənəvi zənginliyin olur. Bu dünyada necə yaşamısansa, neçə-neçə nəsil səni o cür xatırlayır, vəssalam. Bəs belə isə acgöz olmağa dəyərmi? Bunun üçün özünə də, başqalarına da əziyyət verməyə, bu cılız adı daşımağa dəyərmi?..

*Mətanət Məmmədova*

***P.S. Müqəddəs Ramazan ayının son günündə bu mövzuya toxunmağımız lap yerinə düşdü. Qoy acgöz insanlar bir ac insanları düşünsünlər. Onlar acdır, lakin acgöz deyillər. Acgözlərin isə elə bir cəsarəti yoxdur ki, yığdıqlarından bir tikə həmin ac olanlara yedirsin. Beləliklə, bu qənaətə gəlmək olur ki, ac olmaq acgöz olmaqdan çox-çox şərəflidir...***

# ”Ermənistanın 30 il ərzində ərazilərimizi total şəkildə minalaması danılmaz faktdır”



“Məlumdur ki, istənilən müharibənin başa çatmasından sonra həmin ərazinin ən böyük problemlərindən biri məhz ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsindən ibarət olur. Ümumiyyətlə, mina problemi dünyada qlobal təhlükə sayılır. Müharibəyə və işğala məruz qalmış bir sıra ölkələr, o cümlədən Azərbaycan da bu prosesdən hələ də əziyyət çəkir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.

Politoloq bildirib ki, Ermənistanın 30 illik işğal dövründə və müharibə zamanı işğal olunmuş ərazilərimizi total şəkildə minalaması danılmaz faktdır: ”Azərbaycanın üzləşdiyi mina təhlükəsi kütləvi qırğın silahlarının doğurduğu dəhşət ilə müqayisə oluna bilər. İlkin qiymətləndirmələrə görə ərazilərimizə 1,5 milyondan artıq mina basdırmışdır. Məhz mina terrorunun nəticəsidir ki, Qarabağ müharibəsinin başa çatmasından bu günə qədər yüzlərlə vətəndaşımız mina qurbanı olmuşdur. Torpaqlarımızın kütləvi şəkildə minalarla çirklənməsi hazırda həmin ərazilərdə aparılan bərpa və yenidənqurma işlərini ləngitməklə yanaşı, insanların həyat və sağlamlığına ciddi təhdid yaradır, uzun illər doğma torpaqlarına dönmək arzusu ilə yaşayan yüz minlərlə məcburi köçkünün hüquqlarının reallaşdırılmasına əngəl törədir.



Üzləşdiyimiz mina probleminin nə qədər böyük və mürəkkəb, qarşımızdakı yolun isə hələ uzun olmasına baxmayaraq, ölkəmiz mümkün ən qısa müddətdə bunun öhdəsindən gəlmək üçün bütün gücünü səfərbər etmişdir. Bu gün Azərbaycanda minatəmizləmə fəaliyyəti dünyada mövcud olan ən müasir və qabaqcıl texnologiyalardan istifadə etməklə həyata keçirilir. Milli minatəmizləmə potensialımızın gücləndirilməsi istiqamətində davamlı olaraq iş aparılır və xüsusilə son iki il ərzində ölkəmizin bu sahədəki imkanlarlında ciddi şəkildə artım müşahidə olunur.




Onu da qeyd edək ki, minatəmizləmə fəaliyyətimizin 90 faizindən çoxu ölkəmizin daxili resursları hesabına həyata keçirilir. Təəssüflər olsun ki, ümumi mənzərəyə baxanda xaricdən gələn dəstəyin həcmi hələ ki, çox məhduddur. Beynəlxalq qurum və təsisatların, müvafiq profil üzrə ixtisaslaşmış beynəlxalq QHT-lərin laqeyd münasibəti, bu sahəyə maliyyə ayırmaması və bütün işlərin dövlət büdcəsi hesabına aparılması ikili standartlar siyasətinin, selektiv yanaşmanın və qərəzli münasibətin növbəti nümunəsidir.

Minalardan təmizlənmiş torpaqların gələcəkdə xalqımızın rifahına və tərəqqisinə mühüm töhfə verəcəyini və bunun geniş perspektivdə ölkəmizin ümumi inkişafı baxımından əhəmiyyətini nəzərə alaraq Azərbaycan minatəmizləmə fəaliyyətini dayanıqlı və davamlı inkişaf ilə birbaşa əlaqə kontekstində görür. İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi ilə bağlı ölkəmizdə kompleks tədbirlər həyata keçirilir. Bu sahəyə ayrılan vəsaitin artırılması ilə yanaşı, müvafiq qurumların istitusional formada transformasiyası baş verir və müxtəlif qurumlar da ərazilərin tezliklə minalardan azad olunması işinə cəlb olunur”.




**Səbinə Hüseynli**



Elçin Bayramlı

# Quranda olmayan “islam”

Bu gün bütün müsəlman ölkələrində Qərb dairələrindən idarə olunan qüvvələr islam haqda səhv məlumatları təbliğ edir, Quranı təhrif edir, kütlələrin öz dinlərinə nifrət etməsinə çalışırlar. İslama dəxli olmayan o qədər saxta hədis, nağıl uydurublar ki Bir çox dini icmaların, camaatların başına öz adamlarını qoyub zombi yetişdirməyə çalışırlar. Quranı oxumayan, oxusa da dərk etməyən kütlələr isə bu ”şeyxlərin” tələsinə düşür. Onların danışdığı absurd fikirləri islam, Quran deyirmiş kimi başa düşüb dini zərərli bir şey kimi qəbul edirlər. Halbuki, Quranda bircə cümlə belə zərərli fikir yoxdur. Bu gün islam adı təqdim olunanların, qədimdən qalan və ya yeni formalaşn adətlərin Qurana zərrə qədər də dəxli, aidiyyatı yoxdur. Quran özü açıq şəkildə bunların əleyhinə çıxır.

Bir çox məsələlər isə, Quranın səhv tərcümələri və səhv izahları ilə bağlıdır. Hansı ki, araşdıranda görünür ki, fikir kontekstdən çıxarılıb və fərqli mənaya yozulub. Bu, ərəb dilinin hədsiz zənginliyi və mürəkkəbliyi ilə bağlıdır. Gəlin Quranda olmayan lakin islam kimi qələmə verilən anlayış və əməllərin qısa siyahısına baxaq;

-Məzhəblər, təriqətlər yoxdur

-Şeyx və ya imama bağlılıq yoxdur

-Kişi və ya qadın sünnəti qadağandır

-Quranı başa düşmədən oxumağın mənası yoxdur.

-Bir fikrə və ya bir insana sorğu-sualsız tabe olmağq yoxdur.

-Uşaq evliliyi yoxdur

-Fatalizm (taleyə, alın yazısına inanmaq) yoxdur

-Namusda/zinada kişi ilə qadın arasında fərq yoxdur.

-Dinini dəyişənləri, namaz qılmayanları, içki içənləri, zina edənləri öldürmək kimi bir şey yoxdur.

-İslami ad qoymadan və sünnət olunmadan müsəlman ola bilməzsiniz deyə bir şey yoxdur.

-Hədislər yoxdur.

-Yalnız ərəbcə namaz qılmaq və dua etmək yoxdur

-Hərəm saxlamaq və sələmçilik yoxdur

-Ağıl və elmə qarşı fikir yoxdur, əksinə onlar ən üstün xüsusiyyət sayılır

-Musiqi, rəsm, şeir, heykəltəraşlıq, mədəniyyət elementlərinin haram sayılması yoxdur.

-Çadra yoxdur

-Quranın təkamül nəzəriyyəsinə zidd olması kimi bir şey yoxdur

-Adəm ilk insandır deyə bir şey yoxdur. Adəm ilk məsuliyyətli insandır

-Hansısa peyğəmbərin, imamın enəcəyi, dəccalın zühur etməsi kimi nağıllar yoxdur.

-Öləndən sonra ziyafət vermək- 3, 7, 40 yoxdur.

-İslamda xilafət adlı xüsusi bir quruluş və mövqe yoxdur.

-Dini yaymaq üçün ölkələrin fəth edilməsi yoxdur.

-Şeytan daşlama ayini yoxdur

-Quranın ilk və əsas şərti oxumaqdır (elm, bilik əldə etmək)

-Dini və xasiyyəti eyni olmayanları düşmən görmək caiz deyil.

-Ərəb adət-ənənələrini sünnə kimi qəbul etdirmək yoxdur.

Bu siyahını xeyli uzatmaq da olar. Təəssüf ki, bir çoxları bunları bilmir, çünki əksəriyyət Quranı oxuyub, düşünüb, analiz etməyə tənbəllik edir, elə orda burda eşitdikləri, saxta din xadimlərinin dedikləri əsasında özündə fikir formalaşdırır.

Bir çox müsəlman ölkələrində isə hakimiyyətlər dini siyasi alətə çeririr və öz siyasətləri üçün dindar insanlardan istifadə edirlər. Digər dinlərə malik ölkələrdə də belə hallara rast gəlinir. Ona görə də, normal dindar savadlı olmalı, həm elmləri, həm də dinləri bilməlidir.

Bu gün ortalıqda 2 qrup var: biri dinçilər, digəri dindarlar, yəni həqiqi mömünlər. Dinçilər din adından istifadə edib öz məqsədlərini həyata keçirməklə məşğuldur. Əsl dindarlar isə, heç bir təriqətə, məzhəbə qoşulmayaraq, hər hansı bir şeyxin, imamın təbəəsi kimi davranmayaraq yalnız Yaradana və onun göndərdiyi kitaba bağlanır.

Fanatik dindarlar isə dini anlamayan və xüsis mərkəzlər tərəfindən beyni yuyulmuş insanlardır. Terrorçular, canilər əksər hallarda onların arasından çıxır. Fanatizm istənilən sahədə təhlükəlidir, o cümlədən də dində.

Ona görə də, hər hansı bir dinə mənsub olduğunu deyən insanın törətdiyi cənayətə görə həmin dini günahlandırmaq olmaz. Cinayətkarlın milliyyəti, dini, insani dəyərləri olmur.

Əgər dindarsansa, Yaradana bağlısansa, onda onun göndəriyi kitablara inanacaqsan, kimlərinsə xüsusi məqsədlər üçün uydurduğu söhbətlərə yox.

Qısası bu gün bəzi insanların təqdim etdiyi islamla Yaradanın göndərdiyi Quran xeyli fərqli şeylərdir. Hansına inanacağınızı özünüz seçməlisiniz.

VI YAZI

# İtirdiyimiz xüsusiyyətlər: utanmaq





İnsanda bir dəyər kimi qiymətləndirilən və şəxsiyyətin mənəvi-ruhi səviyyəsini ifadə edən bir neçə təbii xüsusiyyət var ki, onlardan biri də də utana bilmək, bəzən isə utananda qızara bilməkdir. Utanmaq təkcə utanmaq deyil, utanc anında bu hissi iliklərinə qədər yaşamaqdan gedir söhbət və qızarmaq bu vəziyyətin göstəricisidir.

Utanmaq bəlkə də ən təməl insani duyğulardan biridir. Psixoloqlar onu insanın özündə hiss etdiyi hər hansı çatışmazlığa reaksiyası kimi xarakterizə edir. Yəni sizin hər hansı bir çatışmazlığınızın fərqində olan insanlara qarşı keçirdiyiniz hiss utanmaq adlandırılır. Lakin bu hiss həm də təvazökarlığı təmsil edir. Belə ki, tərifləndə, öyüləndə qızarmaq, utanmaq kimi əlamətlər təbiətcə təvazökar olan insanlarda müşahidə edilir. Yəni, utanmaq heç də həmişə çatışmazlıq duyğusunun göstəricisi olmur.

Yalanımızın üstü açılanda, günahımız ortaya çıxanda, etmədiyimiz bir şeyi etmiş kimi görünəndə, tərifləndə,



danlananda - çox fərqli vəziyyətlərdə yaranan duyğudur utanmaq. Utanc hissi əsasən davranışlarımızı tənzimləməyə kömək edir, buna görə də funksionaldır. Lakin həddən artıq utancaq olmaq bizim sosial əlaqələr qurmağımıza mane olur, bu hissin ifratı bizi ünsiyyətdən qaçmağa, içimizə qapanmağa vadar edə bilər.

Utanmaq əslində həm də görünməz olmaq hissini xarakterizə edir. "Utandığımdan yerin dibinə girdim", "yer yarılsaydı, o anda yerə girərdim", "utandığımdan öldüm" kimi ifadələr utanc hissinin bizə yaşatdığı o görünməz olmaq hissinin təzahürüdür.

Günümüzdə utanmaq anlayışı bir az yad kəlməyə çevrilib. Utanmağın yeri, zamanı, qaynağı da unudulub. Bizim hər hansı çatışmazlığımızı və qüsurlarımızı görən insanlara qarşı da çox az halda utanc duyğusu yaşayırıq. Amma unutmayaq ki, utanc hissi varsa, şəxsiyyətin mənliyi də var. Yəni əskik hiss etdiyimiz zamanlarda keçirdiyimiz utancaqlıq hissi belə bizim mənliyimizi, şəxsiyyətimizi, hələ də insan qaldığımızı təmsil edir.

Utanc hissini həm şüurlu, həm də qeyri-ixtiyari büruzə veririk. Utanmaq, digər duyğularımız, məsələn qəzəb, qorxu, təəccüb kimi hisslərimiz ilə müqayisədə daha şüurludur. Biz kədəri, qorxunu, təəccübü qeyri-ixtiyari göstərə bilirik, amma utanmaq duyğusu həmin anda şüurumuzla göstərdiyimiz bir davranışa da çevrilə bilər və bunun əksinə, qəfildən, fərqində olmadan utanma hissiniz də yarana bilər.

Utanc hissi bizim sosial davranışlarımızı tənzimləyir. Yəni utanmaq duyğumuz olmasaydı biz etmək istəmədiyimiz çox şeyi edərdik. Xoşbəxtlik, qorxu, qəzəb, kədər kimi əsas duyğular bəzən mədəniyyətə, olduğu cəmiyyətə görə dəyişmir. Biz hansı irqdən, hansı millətdən olursaq olaq, qorxanda, qəzəblənəndə eyni cür reaksiya verə bilirik. Amma utanmaq hissi, milli və irqi mənsubiyyətə görə dəyişə bilir. Bir avropalı ilə bir şərqlinin utanma duyğusu fərqli ola bilir. Birinin utandığı davranış və vəziyyət digəri üçün tamamilə normal qəbul edilir.

İnsan təkcə maddi varlıq deyil, material deyil, ət-qan deyil. İnsan daha çox ruhi-mənəvi şəxsiyyətdir- bu həm dini, həm elmi olaraq əsaslandırılmış aksiomadır. Bəs o zaman maddi bədənimiz ruhi bədənimizə niyə "toy tutur"? Mənəviyyatımız utanma hissini unutmaqla yoxa çıxır, bizi daha heç nə təccübləndirə bilmir, çünki utanmazların çevrəsində çox şeyi adi qəbul etməyə alışmışıq. Utanma hissi əslində, maddi bədənin





günahı olduğu zaman, ruhi bədənin adekvat reaksiyasıdır. Yəni, bizi hansısa daxili qüvvə, hər hansı bir hərəkətə görə utanmağa, xəcalət çəkməyə məcbur edir və materialımız, bədənimiz utanma duyğusunu büruzə verir, qızarır, abır-həya edir.

Utanmaq insana xas duyğudur, digər canlılarda bu yoxdur. Bu hiss mənəvi dəyərlərin başında dayanan əxlaqi prinsiplərdən bizə tabe olmayanıdır. Yəni əgər səndə bu hiss varsa utanma anında özünü sözsüz ki, büruzə verəcək. Əgər yoxdursa bədən heç bir reaksiya göstərməyəcək və "arsız", "abırsız" dediyimiz insanlar bu qəbildəndir. Abır-həyası, xəcalət hissi olmayan insan niyə, necə utansın ki?

Elə bir dövrə gəlib çatdıq ki, bu dövrün insanlarının çoxu utanmağı unudub. İndi insanlar utanmadan bir-birinə yalan danışa bilir, bir-birini aldada bilir, xəyanət edə bilir. Əvvəl utanc sayılan şeylər artıq çoxdan qürur yeri sayılır. İnsanlar intim yerlərini, məhrəmlərini belə göstərməkdən çəkinmirlər. Efirlərdə o əxlaqsızlıq qalmadı ki göstərməsinlər, telekanallar, saytlar əxlaqsızlığı, xəyanəti, murdarlığı, şərəfsizliyi, eqoistliyi, tərbiyəsizliyi normalmış kimi təbliğ etməyə başladılar. Əxlaqı olanlar burunlandı, xor görüldü. Soyunmayan tanınmışlar efirlərə dəvət edilmədi, əxlaqı donundan, donu əxlaqından qısa olanlara qaldı meydan. Utanmaq da beləcə yavaş-yavaş unuduldu, itib batdı.

Çox az müddət ərzində qeyri-normal olan bütün davranışlar adi hala çevrildi, indi anormal bildiyimiz nə varsa cəmiyyət tərəfindən dəstəklənir. Efirdə özünə ər ya arvad axtaranlar, arvadını başqa kişi ilə tutub videosunu çəkib efirdə nümayiş etdirənlər, bir-birinin bütün paxırını milyonların gözü önündə açıb sonra heç nə olmamış kimi həyatlarına davam edənlərdə yoxdur utanma hissi. Biz daha nələr görüb, kimlərin əvəzinə utanacağıq? Daha immunitet yaranıb bədənimizdə, əvvəl bizi dəhşətə gətirən şeylər indi normal gəlir, əvvəl görüb utandığımız şeylər indi adiləşib. Qeyri-normal vəziyyətlər normallaşdıqda, anormal davranışlara göstəriləcək reaksiyalar da yoxa çıxır.

Qadınlar efirlərdə, sosial şəbəkələrdə böyük ombalarını, iri sinələrini oynadaraq baxış toplamağa başlayandan, cinsi oriyentasiyası bilinməyən insanların başqasına ağıl verməyə başlamasından, gənc qızların daha pullu ər tapmaq uğrunda bir biri ilə yarışmağa başlamasından, atalar öz övladlarını canlı yayımlarda oynadıb, söyüş söydürüb baxış qazanandan sonra utanmaq hissi kimin vecinədir ki?

"Utanma hissi insanlığı xilas edə biləcək güclü bir hissdir" deyib məşhur rejissor Andrey Talkovski.

Utanmaq hissi bizim hələ də insani keyfiyyətlərimizi itirmədiyimizi, həya, ar kimi xüsusiyyətlərə malik olduğumuzun göstəricisidir. Yad kişi yanında səsini ucaltmayan, böyük görəndə həya edən qızların, qadınların yerini, canlı yayım açıb vəhşicəsinə qışqıran, hədiyyə üçün bütün mənəvi dəyərlərini qurban verən, pul uğrunda bütün məhrəmlərini açıb ortalığa saçan məxluqlar peyda olub. Onların açdığı cığırla yerdə qalan qız-gəlin sürətlə irəliləyir - utanmaq hissini lazımsız paltar kimi əynindən soyunub arxasına ataraq. Sözün həqiqi mənasında soyunurlar, həm utanmaq hissini, həm də normal geyimlərini. Utanmağı olmayanın geyimi olsa nə olar ki?!

***Lalə Mehralı***

# Aldadılaraq uçuruma və FƏLAKƏTƏ SÜRÜKLƏNƏNLƏR

***Dəfələrlə şahidi olmuşuq ki, Ermənistanın baş naziri Nikol Paşinyan mütəmadi olaraq, özünü ya görməməzliyə, ya da qanmamazlığa vurur. Bəzən Paşinyan özünü elə göstərir ki, hamı üçün aydın olanı, aşkar olanı görməyən kimi təsir bağışlayır. Əslində isə, erməni baş nazir sadəcə olaraq, ona sərf etməyəni görməmək ənənəsinə sadiqdir. Məsələn, Nikol Paşinyan özünü elə aparır ki, guya Rusiya ilə qarşıdurmada ABŞ və Aİ-nin zəifliyini hiss etmir, görmür və başa da düşmür. Xeyr, görür də, başa da düşür, sadəcə olaraq, hakimiyyəti ələ keçirdiyinə görə Qərb qarşısında "sədaqət borcu" olduğunu unutmadığından və bir də Qərb tərəfindən məhz ona verilən hakimiyyətin əlindən alınması qorxusundan özünü çox vaxt qanmazlığa qoyur. Bu isə Ermənistanı uçuruma sürükləmək deməkdir.***



### Nikol Paşinyanın hayların taleyini yox, öz hakimiyyət kürsüsünü, özünü düşünür və xalqı aldadır

Artıq erməni baş nazir açıq şəkildə bəyan edir ki, bildiyini edəcək və heç kim də



onun, kobud şəkildə desək, vecinə də deyil. "Mən özüm üçün strateji qərar verdim ki, təslim olmayacağam və bu mənada mənim üçün ən vacibi budur", deyə partiya iclaslarından birində israrlı olduğunu açıq şəkildə bildirən Ermənistanın baş naziri Nikol Paşinyanın hayların taleyini qətiyyən düşünmədiyini hiss etmək heç də çətin deyil. Təbii ki, ancaq öz hakimiyyət kürsüsünü və özünü düşünən Nikol düşünür ki, istənilən zaman öz üçün vəziyyətdən çıxış yolu tapa bilər. Məsələn, Ermənistan Ukraynanın gününə düşdüyündə, onun aradan çıxması, ölkəni tərk etməsi məsələnin çox asan olduğunu düşünür. Bəlkə də onun üçün asan ola bilər, amma heç də erməni xalqı üçün, Ermənistanda yaşayanların hamısı üçün bu asan ola bilməz. Əksinə, sadə vətəndaşların hansı problemlər qarşısında elə məhz Ermənistanda baş-başa qalmasından başqa çıxış yolunun olmadığı ondidən bəllidir. Bunu da Paşinyan yaxşı bilir. Amma görünür vecinə də almır, çünki özündən başqa heç nə barəsində düşünmür və bu da onun rəhbərlik etdiyi ölkənin uçuruma, fəlakətə doğru getməsi barədə indidən anons verməyə əsas yaradır.

Düzdür, insanları inandırmaq, onları aldatmaq, könlünü almaq, bir sözlə, manipulyasiya etmək bacarığı baxımından Paşinyanın tayı-bərabəri ola bilməz. Onun daxili auditoriyaya hesablanan siyasətinin də, ən xırda addımlarının da dəfələrlə şahidi olmuşuq və görmüşük ki, insanları aldatmaqda, istediyinə inandırmaqda Vovayeviç həqiqətən də mahirdir. O, bu məharətindən heç də imtina edənə oxşamır və deyəsən yenə də istifadə etməkdədir. "Mən başqa yerdən gəlməmişəm, sizin mühitinizdə doğulub, formalaşıb, böyümüşəm. Aydındır ki, baş verən hər şey psixoloji, insani, əxlaqi və siyasi baxımdan çox çətindir", deyən Nikol Paşinyan bir növ demək istəyir ki, guya ölkədən baş verə biləcəklər ondan da yan keçməyəcək və hazırda belə onu da bərk incidir. Əslində isə, Nikol yenə də öz xalqını və ölkəsinin ictimaiyyətini aldadır. Bəli, Paşinyan orada, Ermənistanda, elə hayların öz gözlərinin qarşısında böyüyüb boya-başa çata bilər, amma artıq onlardan biri ola bilməz. Çünki Nikol artıq Qərb oyunçusudur və məhz ona hakimiyyəti verən, hədiyyə edənlər qarşısında özünü borclu bilir. Lazım gəldikdə bütün ölkəni də özünü borclu bildiklərinin ayaqları altına belə atmaqdan zərrə qədər çəkinməz. Heç çəkinmir də. Əks halda, bu qədər təhlükəli oyunlara baş vurmaz, Rusiya kimi bir ölkəni qıcıqlandırmaqdan da olsa çəkinərdi. Çünki Nikol Paşinyan hamıdan yaxşı bilir ki, Rusiya üçün Ermənitanı əzib tarixin zibilliyinə atmaqdan asan heç nə yoxdur və onun Qərb deyib ağuşuna atıldığı ABŞ da Avropa İttifaqı da Rusiyanın qarşısını çəkməkdə acizdir. Ən azından, indi özünü körluğa vuran Nikol görür ki, illərdir ABŞ və Avropa İttifaqı bir yerdə Rusiyanı Ukraynadan çıxara bilmir. Deməli, Ermənistandan çıxarmaq barədə əvvəla heç düşünməyəcək, digər tərəfdən də düşünməyə belə vaxt tapa bilməyəcək, çünki həmin o düşünmək üçün lazım olan vaxt müddəti belə Rusiyanın Ermənistan barədə ölçü götürməsi üçün kifayət edəcək. Bir sözlə, bütün bunları Paşinyan çox yaxşı bilə-bilə öz xalqının taleyi ilə qumar oynayır. Bu qumar isə hayların ölkəsi üçün də, özləri üçün də böyük fəlakət deməkdir.



### "Qırmızı xətləri" keçdikləri barədə Ermənistana Rusiya dəfələrlə xəbərdarlıqlar edib və açıq şəkildə bildirir ki, ermənilər üçün mütləq cəza olacaq

İndi artıq haylar görürlər ki, bir zamanlar demokratiya, insan azadlığı, azad söz deyə hakimiyyəti ələ keçirən Nikol Paşinyan öz hakimiyyərini heç kimlə bölüşmək fikrində deyil. Fikrində deyil sözü çox zəif səslənir, bəlkə Nikol canını verər, hakimiyyətini əldən verməz və bunu artıq haylar çoxdan başa düşüblər. Onu da başa düşüblər ki, bir zamanlar küçələrdə çığıran və xalqına işıqlı gələcək vəd edən əli sarıqlı, belə çantalı küçə nümayişçisi indi onlar haqqında düşünmür də. Başa düşüblər ki, onların taleyi Nikol Paşinyanı zərrə qədər maraqlandırmır. Amma maraqlıdır ki, onun oynadığı oyunların ölkələri üçün fəlakət olduğunu, pəh-pəhlə seçdikləri liderlərinin onları uçuruma doğru sürüklədiyinin də görəsən hər biri fərqindədirmi? Təhlükəsizlikləri barədə kiminsə onlara zəmanət vermədiyini də olsa görmürlərmi? Görmürlərmi ki, şimal qonşuları, bu vaxta qədər kölgələrində kölgələndikləri, sonra da xəyat etdiklərinə görə qıcıqlandırdıqları rusların qəzəbi artıq son həddə çatıb? Bunun hansı fəlakətlərə səbəb olacağını yəni həqiqətənmi başa düşə bilmirlər?

Tutaq ki, sıravi vətəndaşların bəzi proseslərdən xəbəri yoxdur. Elə zənn edək ki, sıravi ermənilər heç də rusların nə düşündüyü barədə məlumatsızdırlar. Axı Nikol Paşinyan yaxşı bilir ki, başda Rusiya prezidenti Vladimir Putin olmaqla bütün rusları yetərincə qızışdırıblar. Axı o bilir ki, Ermənistan barədə Rusiya hansı fikirdədədir. Bilir ki, Moskva son zamanlar Ermənistanla bağlı fikirlərini açıq şəkildə ifadə edir. Paşinyan bilir ki, hər cür "qırmızı xətləri" keçdikləri barədə Ermənistana Rusiya dəfələrlə xəbərdarlıqlar edib. Həqiqətən də Rusiya çox açıq şəkildə bildirir ki, hər cür "qırmızı xətləri" keçdiklərinə görə ermənilər üçün mütləq cəza olacaq. Bunu ruslar heç gizlətmirlər də. Elə isə Nikol Paşinyan haylara onların təhlükəsizliyi ilə bağlı hansısa bir dəqiq zəmanət veribmi? Verməyib. Heç verə də bilməz. Əksinə, haylar üçün fəlakət senarisinin günü-gündən daha dəhşətli hazırlanması üçün Nikol bir növ əlindən gələni əsirgəmir.

### Azərbaycanla münasibətləri günü-gündən yaxşılaşan Rusiya üçün hədəf Ermənistan olmalıdır

Hayların yuxularını ərşə çəkən həm də Azərbaycanla Rusiya arasında əlaqələrin daha da yaxşılaşmasıdır. Əlbəttə ki, Ermənistan ictimaiyyətinin belə bir narahatçılığı başadüşüləndir. Ona görə ki, ermənilər ruslarla münasibətlərin hadisələrin gedişatına təsirsiz ötüşmədiyini və bundan sonra da ötüşməyəcəyini yaxşı bilirlər. Bilir ki, Azərbaycanla münasibətləri günü-gündən yaxşılaşan Rusiya üçün hədəf Ermənistan olmalıdır. Xüsusilə qeyd edək ki, erməni cəmiyyətinin bu narahatçılığını, Azərbaycan və Rusiya Xarici İşlər nazirlikləri arasında Bakıda müntəzəm məsləhətləşmələr aparılmasına qısqanclıq nümayiş etdirmələrində daha aydın görmək olur. Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Pavel Knyazevi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun qəbul etməsi, danışıqlarda ikitərəfli və beynəlxalq əməkdaşlıq məsələlərinin müzakirə olunması hayları bir qədər də təlaşlandırıb. Əslində, belə də olmalıdır, çünki özləri Rusiya ilə münasibətlərini çox pis vəziyyətə gətirib çıxarıblar və indi də qorxularından gözlərinə yuxu da getmir. Çünki bilirlər ki, Rusiyanın qəzəblənərək erməniləri hədəfə alması onlar üçün çox böyük fəlakətdir.

### Ermənistanı yer üzündən silinməkdə olan Ukraynanın, hayları isə ikraynalıların taleyi gözləyir

Nəinki fəlakətlərin, heç adi çətinliyin belə öhdəsindən gəlmək barədə fikri belə olmayan Paşinyan yalnız öz naminə Qərbə üz tütmaq barədə qərarında israrlı olduğunu Ermənistan ictimaiyyətinə həzm etdirməyə çalışır. Hətta özünü son vaxtlar hədsiz dərəcədə vətənpərvər, bəzən də guya qorxmaz kimi göstərməyə çalışır. O, bir çox hallarda tanınmamış qəhrəman obrazında görünməyə çalışır və özün elə göstərir ki, guya onu səhv başa düşürlər. Elə davranır ki, guya bir dahidir və onun sözləri də müzakirəsiz, mübaliğəsiz qəbul edilməlidir. Bəlkə də 44 günlük müharibədən öncəki sayıqlamaları, sonra da rüsvayçı məğlubiyyətlərindən sonra kapitulyasiya sənədinə imza atması olmasaydı haylara özünü dahi kimi də sırıyardı, amma indi buna güçü çatmır. Amma gücü çatan ölkəsinə fəlakət gətirməkdir. O, həqiqətən də Rusiyanın yer üzündən sildiyi Ukraynanın taleyini Ermənistan üçün, ukraynalıların taleyini haylar üçün hazırlayır. Ukraynadakı müharibə isə artıq göstərdi ki, kollektiv Qərb parçalanıb və Rusiyanın məğlubiyyətinə səbəb ola biləcək təzyiq göstərmək iqtidarında deyil. Deməli, Qərbə üz tutmaqla, xəyanət edərək rusları qızışdırmaqla, Moskvanı qıcıqlandırmaqla Nikol Paşinyan hayları qırğına aparır. Haylar da buna, səssiz razılıq göstərərək bu fəlakətə rəvac verirlər...

***İnam Hacıyev***

# Gürcüstanlı ekspert: "Azərbaycan Ermənistana təzyiq üçün bütün imkanlara malikdir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*








***Gürcüstanın İctimai Əlaqələr İnstitutunun (GİPA) beynəlxalq münasibətlər üzrə magistr proqramının rəhbəri, professor Tornike Şaraşenidze "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistanın siyasəti və bunun region üçün törətdiyi təhlükələr haqda danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Ermənistan fəal şəkildə siyasi qeyri-sabitlik kartını oynayır, regiona Cənubi Qafqazda sülhü pozmağa, gərginliyi qızışdırmağa və bu regionu Rusiya ilə münaqişənin qaynar nöqtəsinə çevirməyə hazır olan yeni oyunçuları cəlb edir. Buraya Aİ-nin Ermənistandakı missiyası və Amerika kəşfiyyat xidmətlərinin agentləri daxildir. Belə komponentlərlə regionda sülh yaratmaq mümkün olacaqmı?***

- Paşinyan çətin vəziyyətdədir və hesab edirəm ki, bunu da nəzərə almaq lazımdır. Bir tərəfdən ermənilər üçün ən ağrılı olan Azərbaycanla sərhədin demarkasiyası prosesi başlayıb, digər tərəfdən də Bakı və Ankaraya doğru bir addım belə bağışlamayan radikal müxalifətin ciddi təzyiqi altındadır. Bu halda o, yalnız öz ritorikasını gücləndirir. Fikrimcə, Bakı 44 günlük danışıqlar prosesinin qalibi kimi danışıqlar prosesinin bütün çətinliklərinə baxmayaraq, Ermənistana bütün təzyiq rıçaqlarına malikdir.

Ermənistan, təbii ki, Amerika kəşfiyyat xidmətlərinin və Rusiya hərbçilərinin eyni vaxtda ölkədə olması səbəbindən çətin vəziyyətə düşüb. Təbii ki, eyni zamanda, İrəvan Türkiyə və Azərbaycanın güclənməsini, bölgədə başqa oyunçuların meydana çıxmasını istəməyən Tehranın da bölgədəki maraqlarını nəzərə almalıdır. Yeri gəlmişkən, Gürcüstanda da İranla mürəkkəb tarixi münasibətlərini xatırlayırlar və buna görə də, gürcülər Cənubi Qafqazda sülh və harmoniyada çox maraqlıdırlar, Cənubi Qafqaza region üçün təhlükəli vəziyyətlər düşünən oyunçuların cəlb edilməsinə qarşıdırlar.

***- Bu kontekstdə Fransanın dağıdıcı rolunu xüsusilə qeyd etmək istərdim...***

- Məncə, Fransa daha çox ətalətdən kənar hərəkət edir, Ermənistana kömək edir, özü üçün riskləri lazımi səviyyədə qiymətləndirmir. Amma qeyd edirəm ki, Parisin intriqalarına qarşı bir qəti resept var: Bakı İrəvanla mehriban qonşuluq münasibətləri qurarsa, Fransa sadəcə olaraq işsiz qalacaq və regiondan çəkiləcək, onun bütün oyunu əhəmiyyətsiz olacaq. Parisdən və ya başqa yerdən köməkçilər olmadan tərəflər arasında birbaşa dialoqu təkid edən Bakı bunu yaxşı başa düşür. Deməli, məncə, vəziyyətin bütün açarları Cənubi Qafqazın ən güclü siyasi oyunçusu olan Azərbaycandadır.

***- Bakı ilə Tbilisi arasında siyasi və iqtisadi əməkdaşlığın perspektivlərini necə görürsünüz?***

- Bakı və Tbilisini, əlbəttə ki, çox şey birləşdirir, hələ keçmişimizin tarixi qatlarını bir kənara qoysaq belə indiki dövrdə də əlaqələrimiz müxtəlif sahələrdə inkişaf edir və artıq bu qarşılıqlı əlaqənin gözəl bəhrələri var - məsələn, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri. Əgər regionda sülh qalsa, o zaman bizim əlaqələrimiz daha da yüksək səviyyəyə qalxa bilər, çünki Cənubi Qafqazın çox böyük potensialı var, xüsusən də iqtisadi. Azərbaycan və Gürcüstanın nadir resursları isə belə əməkdaşlığın inkişafı üçün gözəl perspektivlər verir. Turizmin inkişafı sahəsində birgə işləməyi demirəm- bizim paylaşacağımız və dünyaya göstərəcəyimiz şeylər var.

***- Əsasən Qərblə Şərq arasında olan Gürcüstanın xarici siyasət kursunu necə görürsünüz?***

- Gürcüstan hələ də Avropa İttifaqı ilə Rusiya arasında balans tapmağa nail olur, tutaq ki, Tbilisi Qərbə can atır, amma Rusiyaya ehtiyatla baxır. Rusiya ilə Ukrayna arasında müharibənin nəticəsindən çox şey asılıdır, məncə, bu amil bizim region üçün həlledicidir. Artıq aydındır ki, Rusiya Cənubi Qafqazı tam tərk etmək fikrində deyil və bizim hamımız: Gürcüstan, Azərbaycan və Ermənistan Rusiyanın maraqlarını və planlarını nəzərə almalıyıq. Bu mənada Tbilisi, yeri gəlmişkən, Azərbaycanın və Türkiyənin dəstəyinə çox ümid edir, mənə elə gəlir ki, onların maraqlarına uyğun olan da güclü, müstəqil Gürcüstandır.

***- Bununla yanaşı, Tbilisi indiyədək regional əməkdaşlıq formatında "3+3"də iştirakdan çəkinib. Digər tərəfdən, Gürcüstan Bakı ilə İrəvan arasında danışıqlar üçün platforma təklif etdi. Tbilisi bu təklifləri həyata keçirməyə hazırdırmı?***

- Regionlarımızın Rusiya tərəfindən işğalı probleminə görə Gürcüstanın "3+3" formatında iştirakı məsələsi hələ də çətin deyil və Gürcüstan sülh və əməkdaşlıq ideyasını dəstəkləyən heç bir formatda iştirakın əleyhinə deyil. Eyni zamanda, Gürcüstan Bakı ilə İrəvan arasında danışıqlar platformasına çevrilmək istəyir və buna hazırdır, çünki o, ilk növbədə regionumuzda davamlı sülhün qurulmasında maraqlıdır. Gürcüstan regional güc və ya imperiya deyil, bizim həddindən artıq ambisiyalarımız yoxdur. Gürcüstan resurslarla zəngin olmayan ölkədir, ona görə də bizim təklif edə biləcəyimiz əsas şey coğrafiyamızdır. Regionda yerləşdiyimizə görə Gürcüstan regional mərkəzdir; coğrafiyamız kiçik mənada məhsulumuz və valyutamızdır. Amma onun həyat qabiliyyəti sülhdən və mehriban qonşuluq münasibətlərindən asılıdır, biz bunu çox yaxşı başa düşürük və buna görə də biz regionda belə bir model yaratmağa, Cənubi Qafqazda sülh proseslərini inkişaf etdirməyə çalışırıq.

***Tərcümə - Elçin Bayramlı***



SON SƏHİFƏ
SƏS
10 aprel
2024-cü il

# Ən perspektivli peşələr hansılardır?

## EKSPERT AÇIQLADI



"Peşələri "perspektivli", "perspektivsiz", "nüfuzlu", "nüfuzsuz" kateqoriyalara bölməyi düzgün yanaşma hesab etmirəm. Bu kimi təsnifatlandırmalar insanlarda müəyyən peşələrin artıq sıradan çıxması təəssüratı yaratmaqla yanaşı, həm də bu kimi ənənəvi peşələrə marağın itməsini zəruriləşdirir. Halbuki, peşə məzmunca elə həmin peşədir, sadəcə olaraq formaca dəyişmiş olur. Yəni, canlı ünsiyyət tədricən texnoloji proseslə əvəz olunur. Başqa sözlə dünyada baş verən texnoloji dəyişikliklər və biznes münasibətlərində yaranan yeni şərait əmək bazarına da təsirsiz ötüşmür. Bu gün cərrahları yaxın gələcəkdə "tibbi robotların operatoru"nun əvəz edəcəyi, sinoptikləri "ətraf mühitin bərpası üzrə mühəndis"lərin, təyyarə və helikopterlərdə pilotları robotların əvəzləyəcəyi barədə söhbətlər gedir. Artıq, Avropadakı bəzi məktəblərdə robotlar müəllimlik etməyə başlayıb". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.

Nadir İsrafilov sözlərinə belə davam edib: "Hansısa texnoloqların yaxın gələcəkdə ali məktəbi bitirən gənclərin əksəriyyətinin əsasən kosmos və virtual reallıq sahələrinə maraq göstərəcəkləri barədə proqnozları zamanı qabaqlamaqdan və indidən mövcud peşələri gözdən salmaqdan başqa bir şey deyil. Nəyin necə olacağ zaman bağlı olan məsələdir. Bu gün əmək bazarını tərk edən peşələrdən yeni peşələr yaranır. Yəni, hər şey yeniləndiyi kimi, peşələr də yenilənir və bu heç də o anlama gəlmir ki, sanki, belə bir peşə heç olmayıbmış və lazımsızmış. Təbii ki, dünyada rəqəmsallaşma sürətlə artır. İnformasiya texnologiyaları, rəqəmsallaşma ilə bağlı olan ixtisasların üstünlük təşkil edəcəyi gözlənilir. Gələcəyin ritmini müəyyən edəcək peşələrin bu gün daha çox texnologiyalar ilə bağlı peşələr olması, işlərin bir çoxunun avtomatik olaraq yerinə yetirilməsi ilə razılaşaq, ancaq ümid edək ki, həyati əhəmiyyət kəsb edən tibb, mühəndislik, memarlıq, müəllimlik, kimi peşələrin robotlaşdırılmasına zərurət yaranmayacaq.

Bu gün hələ ki, bir qayda olaraq oğlan abituriyentlər texniki və iqtisad, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük verir. Bununla belə ixtisas saçimində müəyyən məqam və nüanslar var ki, bunu da seçimin məhz abituriyentin sırf maraq və istəkləri ilə əlaqələndirmək düzgün olmazdı. Belə ki, arzu və istəklərin fərqli olması, gənclərin ən yaxşı bildikləri fənnin daha çox əhəmiyyət kəsb etdiyi ixtisas qrupuna üstünlük verməsi, valideyn və repetitor reaksiyası və təsiri, ödənişin olub-olmaması və ya azlığı, çoxluğu, regional xüsusiyyətlər, gələcəkdə işlə təmin olunmaq, erkən karyera qurmaq perspektivləri, keçid balının əlçatanlığı, plan yerlərinin limiti və digər şərtlər də abituriyentin ixtisas seçiminə təsirsiz ötüşmür.

Ümumiyyətlə, bizdə valideynlər övladlarının nüfuzlu ali məktəblərə və nüfuzlu fakültələrə qəbul olmağı ilə fəxr edirlər. Hamı hüquqşünas, diplomat, həkim, mühəndis olmaq üçün can atır. Bu hər şeydən əvvəl ondan irəli gəlir ki, xüsusilə son illərdə "Dövrün tələblərinə uyğun olmayan ixtisaslar", "lazımsız ixtisaslar", "nüfuzlu ixtisaslar", "ən nüfuzlu ixtisaslar", "nüfuzsuz ixtisaslar" və s. bu kimi fikirlərə geniş yer verilir. Belə mövqelər açıqlanır ki, məsələn elektrik mühəndisliyi, gəmiqayırma, maşınqayırma, meteorologiya mühəndisliyi, geodeziya və xəritəçilik kimi xeyli ixtisas var və onlar artıq müasir dövrün tələblərinə uyğun deyil. Texnoloji yeniliklər bu ixtisasların əhəmiyyətini azaldıb. Baytarlıq, aqronomluq, meşəçilik, zootexniklik, kimi ixtisaslara da hazırda əmək bazarında demək olar yer yoxdur.

Ümumiyyətlə ixtisasların "nüfuzlu" və "nüfuzsuz" kateqoriyalarına bölünməsini də yolverilməz hesab edirəm. Nəyə görə hüquqşünas, diplomat nüfuzlu ixtisas olmalıdır, zootexnik, baytar nüfuzsuz? Bəzi insanlar bəzi ixtisasların aktuallığının tamamilə itirdiyini və bu istiqamətdə kadr hazırlığına ehtiyac qalmadığını düşünürlər, vəziyyət isə başqadır. Texnologiya nə qədər inkişaf etsə də, robotlar insan işini görsələr də canlı mütəxəssisin bir işə can yandırmağı başqa məsələdir. Məgər bizə zootexnik, baytar, aqronom lazım deyil? Nə vaxta qədər neftdən, qazdan asılı qalmalıyıq? Hesab edirəm ki, iqtisadiyyatımızın dinamik inkişafı naminə, sosial ədalət və sosial rifah naminə bütün ixtisaslara və peşələrə eyni gözlə baxmalıyıq. Bunun üçün kifayət qədər müxtəlif üsul və vasitələr, habelə stimullaşdırıcı imkanlar axtarıb tapmaq olar. Gəlin, çalışaq zamanı qabaqlamayaq, zaman bizdən daha sürətlidir ".

*Ayşən Vəli*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Ronaldo rəqibini dirsəklə vurdu, meydandan qovuldu



Futbol üzrə Səudiyyə Ərəbistanı Superkubokunun yarımfinal matçı - "Əl-Hilal" və "Əl-Nəsr" komandalarının görüşündə qalmaqal baş verib. Belə ki, qarşılaşmanın 86-cı dəqiqədə "Əl-Nəsr"in hücumçusu Kriştiano Ronaldo rəqibə dirsəklə zərbə vurduğuna görə birbaşa qırmızı vərəqə alıb. Portuqaliyalı meydandan qovulduqdan sonra kapitan sarğısını yerə atıb. O, meydanı tərk edərkən hakimi alqışlayıb və azarkeşləri də buna səsləyib. Qeyd edək ki, "Əl-Hilal" "Əl-Nəsr"ə 2:1 hesabı ilə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə onlar "Əl-İttihad"la qarşılaşacaqlar.

## Bu gündən Ramazan tətili başlayır

***Bu gündən müsəlman aləmi üçün müqəddəs sayılan Ramazan bayramı günləri başlayır. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) açıqladığı rəsmi məlumata əsasən xəbər verir ki, Ramazan bayramı 10 aprel tarixində qeyd ediləcək. Bu məqsədlə də Baş nazir Əli Əsədovun Qərarı ilə Ramazan bayramında ardıcıl 5 qeyri-iş günü olacaq.***



Belə ki, Qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə aprelin 12-si həftənin cümə gününə təsadüf etdiyindən aprelin 6-sı şənbə günü ilə yerləri dəyişdirilib. Aprelin 12-si qeyri-iş günü, aprelin 6-sı isə rəsmi iş günü elan edilib. Bu da o deməkdir ki, ardıcıl 5 gün - aprelin 10,11,12,13 və 14-ü iş olmayacaq. Aprelin 15-dən ölkə ərazisində rəsmi iş günüdür.


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**